# ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

# НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

# SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 14 (1496) ❖ Cümə, 24 aprel 2026-cı il ❖ Qəzet 1984-cü ildən nəşr olunur




# Prezident İlham Əliyev: Strateji Tərəfdaşlıq haqqında Bəyannamə münasibətlərimizi ən yüksək səviyyəyə qaldırır

**Aprelin 22-də Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs ölkəmizdə səfərdə olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Latviya Prezidenti Edqars Rinkeviçsi qarşılayıb.

Həmin gün dövlət başçılarının təkbətək görüşü olub.

Sonra Prezident İlham Əliyevin və Prezident Edqars Rinkeviçsin iştirakı ilə Azərbaycanla Latviya arasında imzalanmış sənədlərin mübadiləsi mərasimi olub.

Prezidentlər "Azərbaycan Respublikası Prezidentinin və Latviya Respublikası Prezidentinin Birgə Bəyanatı"nı qəbul ediblər.

Azərbaycan və Latviyanın rəsmi şəxsləri tərəfindən daxili işlər, kənd təsərrüfatı, konsulluq və sərhəd təhlükəsizliyi sahələrində ikitərəfli əməkdaşlığa dair sənədlər mübadilə edilib.

Dövlət başçılarının geniş tərkibdə də görüşü keçirilib.

Prezident İlham Əliyev nümayəndə heyətini səmimiyyətlə salamlayaraq onları ölkəmizdə görməkdən məmnunluğunu ifadə edib. Həmkarı ilə müxtəlif məsələlər ətrafında müzakirələrinin olduqca məhsuldar keçdiyini, müştərək fəaliyyətin nümayəndə heyətləri ilə birgə uğurla davam etdiyini deyib.

Dövlətimizin başçısı iki ölkənin çox yaxşı siyasi əlaqələrinin olduğunu qeyd edərək, ticarəti və qarşılıqlı sərmayələri artırmaq, energetika, daşımalar, rəqəmsallaşma, eləcə də Azərbaycanda fəal şəkildə təşviq edilən bütün sahələrdə əməkdaşlığımıza dair praktiki məsələləri prioritet istiqamət kimi nəzərdən keçirdiklərini vurğulayıb.

Sonda Prezident İlham Əliyev dəvətini qəbul etdiyinə görə həmkarına minnətdarlığını bildirib, ona Azərbaycanda xoş səfər arzulayıb.

Dəvətə və səmimi qonaqpərvərliyə görə təşəkkürünü ifadə edən Latviya Prezidenti Edqars Rinkeviçs Bakıya sonuncu səfərinin 2017-ci ildə baş tutduğunu və paytaxtın keçdiyi sürətli inkişaf yolunun onda böyük təəssürat yaratdığını bildirib.

Latviya Prezidenti təkbətək görüşdə Yaxın Şərqdə və Avropada cərəyan edən siyasi hadisələrə, həmçinin regional təhlükəsizliyə dair bir sıra mühüm məsələlərin müzakirə edildiyini xatırladaraq, Latviyanın Azərbaycanı strateji tərəfdaş və etibarlı dost hesab etdiyini vurğulayıb. O, siyasi və iqtisadi əməkdaşlığımızın real nəticələr verdiyini qeyd edib, həmçinin Hökumətlərarası Komissiyanın bu istiqamətdəki səmərəli işini yüksək qiymətləndirib.

Daha sonra Prezident İlham Əliyev və Prezident Edqars Rinkeviçs mətbuata bəyanatlarla çıxış ediblər.

Dövlətimizin başçısı bəyanatında Latviya Prezidentinin səfərinin ölkələrimiz arasında ikitərəfli münasibətləri gücləndirmək, müxtəlif sahələrdə əməkdaşlıq üçün yeni imkanlar yaradacağına əminliyini ifadə edib: "Cənab Prezidentlə ikitərəfli gündəliyimizin müxtəlif aspektlərini, o cümlədən beynəlxalq əhəmiyyət kəsb edən məsələləri həm təkbətək görüşdə, həm də nümayəndə heyətlərinin iştirakı ilə geniş şəkildə müzakirə etdik. Şadıq ki, əməkdaşlığımızın çox güclü çərçivəsi var. Doqquz il əvvəl ölkələrimiz arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamə hüquqi çərçivəni yaradır və münasibətlərimizi ən yüksək səviyyəyə qaldırır. Biz elə bunun əsasında tərəfdaşlığı müxtəlif sahələrdə inkişaf etdirmək üçün sıx çalışmışıq".

Prezident İlham Əliyev Azərbaycan tərəfinin qarşılıqlı sərmayə qoyuluşu, ticarət dövriyyəsinin artırılması və birbaşa uçuşların bərpası vasitəsilə iqtisadi əlaqələrin canlandırılmasında maraqlı olduğunu bildirib. Eyni zamanda, Latviyada 450-dən artıq azərbaycanlı tələbənin təhsil aldığını qeyd edərək, təhsil sahəsindəki uğurlu əməkdaşlığı yüksək qiymətləndirib.

Dövlətimizin başçısı Azərbaycanla Ermənistan arasında çox perspektivli sülh prosesinə diqqət çəkib: "Ötən ilin avqust ayından etibarən hər iki ölkə Prezident Tramp tərəfindən Ağ Evə dəvət olunandan və Birgə Bəyanat imzalanandan sonra xarici işlər nazirlərinin sülh sazişinin mətnini paraflадıqdan sonra bizdə de-fakto sülh var. Həmin vaxtdan etibarən sülh prosesində xeyli müsbət dinamika yaşandı, o cümlədən ticarət başlandı, xüsusən də Azərbaycandan Ermənistana yanacaq məhsulları təchiz olundu, vətəndaş cəmiyyəti və media nümayəndələri arasında görüşlər keçirildi və bütün bunlar uzun illər müharibə şəraitində olan ölkələr arasında, həmçinin normal mühitin yaradılmasına töhfə verir".

Latviya Prezidenti Edqars Rinkeviçs bəyanatında ikitərəfli iqtisadi əlaqələrə toxunaraq, ticarət dövriyyəsinin artırılması üçün yeni perspektivlərin açıldığını vurğulayıb. Müdafiə sənayesi, nəqliyyat və əczaçılıq sahələrindəki əməkdaşlıq imkanları ilə yanaşı, Qarabağın yenidən qurulması və meşə salınması layihələrində Latviyanın zəngin təcrübəsini Azərbaycanla bölüşməyə hazır olduqlarını və bu məqsədlə konkret tapşırıqlar verildiyini qeyd edib.

Prezident Edqars Rinkeviçs Azərbaycan və Ermənistan arasındakı sülh prosesini, həmçinin ölkəmizin Ukraynaya humanitar yardımını təqdir edərək, regional təhlükəsizlik məsələlərində Latviyanın Azərbaycanla tam həmrəy olduğunu bildirib. O, Azərbaycanın Trans-Xəzər nəqliyyat dəhlizi və energetika sahəsindəki strateji rolunu yüksək qiymətləndirərək, vizasız rejimin tətbiqi ilə Avropa İttifaqı ilə əlaqələrin daha da dərinləşməsinə tam dəstək verdiyini vurğulayıb. Sonda iki ölkə arasındakı yüksək səviyyəli siyasi dialoqun əhəmiyyətini qeyd edən Latviya Prezidenti, Azərbaycanın regional proseslərdəki müdrik mövqeyinin beynəlxalq müstəvidə eşidilməsinin vacibliyini ifadə edib.

Prezident İlham Əliyevin və Prezident Edqars Rinkeviçsin iştirakı ilə Azərbaycan-Latviya biznes-forumu da keçirilib.

Dövlət başçıları tədbirdə çıxış ediblər.

Prezident İlham Əliyev biznes-forumda ölkəmizin iqtisadi şaxələndirmə siyasətinin uğurlarını diqqətə çatdıraraq, qeyri-neft sektorunun ÜDM-dəki payının 70 faizi keçdiyini vurğulayıb. Dövlətimizin başçısı Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki strateji rolunu qeyd edərək, 2032-ci ilə qədər bərpaolunan enerji sahəsində 8 qigavatlıq gücə malik olunacağını, qaz ixracının artırılacağını bildirib.

Ölkəmizin mühüm beynəlxalq nəqliyyat qovşağına çevrildiyini deyən Prezident İlham Əliyev, Şərq-Qərb və Şimal-Cənub dəhlizləri üzrə nəqliyyat dəhlizinin fəaliyyət göstərdiyini, yeni fiziki infrastruktura, rəqəmsallaşdırılma və süni zəka texnologiyalarına investisiya yatırıldığını qeyd edib. İşğaldan azad edilmiş ərazilərin bərpası, kənd təsərrüfatı və müdafiə sənayesi sahələrində Latviya şirkətləri üçün geniş fürsətlərin olduğunu bildirən dövlətimizin başçısı, Ələt Azad İqtisadi Zonasının cəlbedici investisiya mühitini xüsusi vurğulayıb.

Sonda Prezident İlham Əliyev maliyyə sabitliyinin və xarici borcun aşağı səviyyədə olmasının investorlar üçün etibarlı zəmin yaratdığını deyərək, bu səfərin ikitərəfli biznes əlaqələrində yeni mərhələ açacağına əminliyini ifadə edib.

Latviya Prezidenti Edqars Rinkeviçs çıxışında ölkəsinin Azərbaycanla iqtisadi-ticari əlaqələri dərinləşdirməyə tam hazır olduğunu vurğulayaraq, xüsusilə müdafiə sənayesi, dron texnologiyaları və süni zəka sahəsində birgə layihələrin həyata keçirilməsində maraqlı olduqlarını bildirib. Bakının, xüsusilə Ağ Şəhərin müasir memarlıq və mühəndislik uğurlarından təsirləndiyini qeyd edən dövlət başçısı, Latviyanın meşə təsərrüfatı, kənd təsərrüfatı və əczaçılıq sahələrindəki zəngin təcrübəsini Qarabağın bərpası prosesində bölüşməyə hazır olduğunu diqqətə çatdırıb. O, Azərbaycanın energetika və nəqliyyat dəhlizləri sahəsindəki strateji rolunu yüksək qiymətləndirərək, Latviyanın Şimali və Mərkəzi Avropaya giriş qapısı kimi logistik imkanlarını təklif edib və qarşılıqlı sərmayə qoyuluşunun vacibliyini qeyd edib. Sonda Prezident İlham Əliyevi gələn il Latviyaya rəsmi səfərə dəvət edən Edqars Rinkeviçs, növbəti görüşə qədər biznes-forumda müzakirə olunan ideyaların konkret nəticələrə və real layihələrə çevriləcəyinə əminliyini ifadə edib.

# Azərbaycan elmi: Humanitar və

## Akademik İsa Həbibbəylinin ustad dərsi



**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Akademiyanın doktorant və dissertantları, gənc alim və mütəxəssisləri üçün "Azərbaycan elmi: Humanitar və rəqəmsal təfəkkürün qovşağında" mövzusunda ustad dərsi keçib.**

**Tədbir AMEA-nın Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsinin və AMEA-nın Gənclər Akademiyasının birgə təşkilatçılığı ilə baş tutub.**

**Tədbirin moderatoru, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işçisi filologiya üzrə fəlsəfə doktoru Şəbnəm Mirzəzadə bildirib ki, bu gün akademik İsa Həbibbəylinin ustad dərsi üçün toplanmağımız bizim üçün sadəcə bir dərs deyil, həm də fikir mübadiləsi, yeni baxışların formalaşması və gələcək elm yolumuz üçün motivasiyadır. Qeyd edib ki, Akademiyada ilk dəfə təşkil olunan ustad dərsinin əsas məqsədi bu mövzu ətrafında yeni yanaşmaları birlikdə öyrənmək və inkişaf etməkdir.**

**Daha sonra akademik İsa Həbibbəyli "Azərbaycan elmi: Humanitar və rəqəmsal təfəkkürün qovşağında" mövzusunda çıxış edib.**

**Çıxışı təqdim edirik:**

"Bu gün biz Akademiyanın 80 illik tarixində birinci dəfədir ki, belə genişmiqyaslı ustad dərsi təşkil edirik. Ustad dərsinin əsas iştirakçılarını bizim gənc alimlər və mütəxəssislər təşkil edir. Ustad dərsinin təşkilatçıları sırasında Akademiyanın nəzdində yaratdığımız Gənclər Akademiyası əsas yer tutur. Akademiyanın Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsi ilə birlikdə gənclər bugünkü günün əsas təşkilatçılarından biridir. Bəlkə belə demək mümkündür ki, bu tədbir gənclərin özünün də böyük, müəyyən mənada ilk təqdimat tədbiridir. Bu haqda fikirləşərkən düşündüm ki, mənim gənclərə, gənc alimlərə deyəcəyim sözlər, onlarla bölüşəcəyim məsələlər çoxdur və vaxt daxilində bunların ən zərurilərini seçmək haqqında qərar qəbul etdim.

"Haradan başlayım, nədən başlayım" sualı ətrafında düşünərkən yadıma bir xatirə düşdü. Onunla da başlamaq istəyirəm. Burada mənimlə vaxtilə bir yerdə ali məktəbdə oxumuş, indi filologiya elmləri doktoru olan və Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda işləyən Akif İmanlı da iştirak edir, o da həmin görüşün iştirakçısı idi. 1967-ci ildə biz Azərbaycan Dövlət Pedaqoji Universitetinin ilk açılmış yeni Naxçıvan filialında dərsə başlamışdıq. O zaman Moskva Dövlət Universitetinin kafedra müdiri olan filologiya elmləri doktoru, professor Əziz Şərif bunu eşitmişdi ki, onun vətənində ali məktəb açılıb, alim öz hesabına məzuniyyət götürüb Naxçıvana gəldi və ustad dərsi keçdi.

Əziz Şərif məşhur adam idi. O, Cəlil Məmmədquluzadə ilə dostluq etmiş, Firidun bəy Köçərlinin dostu olmuş, Sultan Məcid Qənizadə və Nəriman Nərimanovla yazışmış, "Molla Nəsrəddin" jurnalında məqalələrini çap etdirmiş məşhur ziyalı Qurbanəli Şərifzadənin oğlu idi. Adi müəllimlikdən professor və kafedra müdirliyinə qədər yol keçmişdi və Azərbaycanda, doğrudan da o zaman Əziz Şərif əfsanəvi adamlardan biri sayılırdı.

Uzun illər Rusiya mühitində yaşayan, o zaman 70-dən çox yaşı olan nurani sifətli bir azərbaycanlının - Əziz Şərifin ders zamanı xalis, təmiz Azərbaycan dilində danışmağı, hətta dialekt sözlərdən istifadə etməyi ilk cümlədən biz tələbələrdə onun nə qədər əsl azərbaycanlı olduğunu əyani şəkildə göstərdi. Və düzünü deyim ki, bu günə qədər o, mənim qəlbimdə bir dağ kəndində böyüyən, çay kənarında yaşayan müəllim ailəsində tərbiyə alan bir adamın qəlbində dərin iz buraxdı. Onun simasında əsl azərbaycanlı simasını gördüyüm üçün xüsusi bir rəğbət yarandı.

Azərbaycançılığı, Azərbaycan mənəviyyatını istənilən şəraitdə, istənilən ideoloji və siyasi mühitdə qoruyub saxlamaq, bu qədər təmiz saxlamaq və ifadə etmək, məncə, Əziz Şərifin bütün elmi xidmətləri ilə bir yerdə tərəzinin ağır gələn gözlərindən biri hesab olunmağa layiqdir. Bu, bizim hər bir Azərbaycan vətəndaşının idealıdır. Yəqin ki, Səməd Vurğunun "Azərbaycan" şeiri olmadan Azərbaycanı təsəvvür etmək çətindir. Vətən bizim babalarımızın məskənidir. Vətən bizim özümüzün, övladlarımızın vətənidir. Abbas Səhhətin məşhur şeirində deyildiyi kimi: "Vətəni sevməyən insan olmaz, olsa da, o şəxsdə vicdan olmaz".

Bizim vətənimiz Azərbaycandır. "Azərbaycan" sözü şərqşünasların yazdığına görə, ərəb mənbələrində hələ IX əsrlərdə işlənmişdir. Rəsmi olaraq isə Azərbaycan sözü XIX əsrdə, XIX əsrin sonlarına doğru rəsmi məlumatda ifadə olunmuşdur. 1891-ci ildə Azərbaycan dilində çıxan "Kəşkül" qəzetində və rus dilində çıxan "Kaspi" qəzetində "Azərbaycan" sözü mətbuatda ilk dəfə işlədilmişdir. Məhəmməd ağa Şahtaxtlının "Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı?" adlı məqaləsi verilmişdi ki, orada Zaqafqaziya müsəlmanlarının "tatar" adlandırılması tənqid olunmuş, bu, qeyri-elmi hesab edilmiş və Zaqafqaziya müsəlmanlarının "Azərbaycanlı" adlandırılması təklif olunmuşdur.

Məhəmməd ağa Şahtaxtlı və "Kəşkül" qəzetindəki "Azərbaycanlı" imzası ilə çap olunan məqalənin müəllifi (məncə, Cəlal Ünsizadə - o, qəzetin baş redaktoru idi) imzasız çap olunsa da, bunların düzgün qənaətinə görə, azərbaycanlıların çox yaşadığı yer Azərbaycan ərazisidir. Azərbaycan coğrafiyası indiki Azərbaycandan genişdir. Bu coğrafiyada yaşayanların dili Azərbaycan dilidir. Bu xalqın adı Azərbaycan xalqıdır. Qəzetdə çap olunan məqalədə Tiflisdə, vağzalda italyan xarici qonaqla azərbaycanlının dialoqu verilir. İtalyan soruşur ki, siz nə millətdənsiniz? Azərbaycanlı cavab verir ki, müsəlman. İtalyan deyir ki, mən sizin dininizi yox, millətinizi soruşuram. Yenə cavab verir ki, mən müsəlmanam. İtalyan ona izah edir ki, müsəlman sizin dininizdir, sizin millətinizin adı azərbaycanlıdır. Müəllif yazır ki, indiyə qədər bizim axundlarımızın heç biri bizə millətimiz haqqında bir söz deməmişdir. Yalnız müsəlman olmağımız haqqında eşitmişdik.

Beləliklə, milli oyanış, milli-mənəvi özünüdərk və Azərbaycan kimliyinin tanınması real olaraq başlandı. Uzun əsrlər boyu xalqımız ümumi adlarla - türk, müsəlman, tatar adlandırılmışdı. Türk bizim mənşəyimizdir, kökümüzdür. Amma milli oyanış, özünüdərk, özünə qayıdış və özünü tanımaq XIX əsrin ikinci yarısından başlamışdır. Mən bu prosesdə Mirzə Fətəli Axundzadənin dramaturgiyasını, Azərbaycan teatrının yaranmasını və XIX əsrdə Azərbaycan milli mətbuatının fəaliyyətə başlamasını milli oyanışın əsas atributları hesab edirəm. XX əsrin əvvəllərində artıq Azərbaycanda "Mən kiməm?" sualına aydın cavab verildi.

Buna ən yaxşı nümunə Cəlil Məmmədquluzadənin 1920-ci ildə Şuşada yazdığı "Anamın kitabı" əsəridir. Məncə, "Anamın kitabı" tam mənası ilə Azərbaycanın tale kitabıdır. Yeri gəlmişkən deyim ki, mənim fikrimcə, XX əsr ərzində cəmi dörd belə əsər - bizim milli kimliyimizin proqramı və nizamnaməsi olan dörd müəllifin əsəri çap olunub. Onlardan biri və birincisi Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsəridir. İkincisi hesab edirəm Anarın "Ağ qoç, qara qoç" əsərini, üçüncüsü Məmməd Arazın "Atamın kitabı" poemasını, dördüncüsü isə Sabir Rüstəmxanlının "Ömür kitabı"nı. Bu dörd əsər, məncə, Azərbaycanın tale kitablarıdır. Hərəsi bir dövrdə milli-mənəvi özünüdərkin, milli kimliyin pasportu olmuş kitablardır.

Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsəri azərbaycançılığın proqram əsəridir, nizamnaməsidir. Və Mirzə Cəlilin 1917-ci ildə yazdığı "Azərbaycan" məqaləsi həcmcə cəmi iki səhifədən ibarət olsa da, bu da azərbaycançılıq anlayışının təməli hesab olunmağa layiqdir. Məqalədə deyirdi: "Bəzən otururam, papağımı qoyub qabağıma fikirləşirəm: mənim anam kimdir? Öz-özümə də cavab verirəm ki, mənim anam rəhmətlik Zəhrabanu bacı idi. Dilim nə dilidir? Azərbaycan dilidir. Vilayətim Azərbaycan vilayətidir". Bu sual ilk dəfə idi qoyulurdu. Ondan əvvəl "mən kiməm?", "dilim nədir?", "ərazi nədir?" müzakirə olunurdu. Amma ilk dəfə Azərbaycan ədəbiyyatında və ictimai fikrində bu suallar 1917-ci ildə Cəlil Məmmədquluzadənin "Azərbaycan" məqaləsində göstərilmişdi.

Onun digər əsərlərinə də müraciət edərək Mirzə Cəlilin cızdığı Azərbaycan coğrafiyasını sizə çatdırmaq istəyirəm. "Azərbaycan" məqaləsində və digər yazılarında qeyd olunduğu kimi, Azərbaycan bir vilayətdir ki, mərkəzi Təbriz şəhəridir, o zamana görə Dəmirqapı Dərbənddən Borçalı çökəyinə, Ağrı dağından, Həmədandan Zəncana və Quzğun dənizinə - Xəzər dənizinə qədər olan ərazini Cəlil Məmmədquluzadə XX əsrin əvvəllərində Azərbaycanın coğrafiyası hesab etmişdir. Təxminən Şah İsmayıl Xətainin qılıncı ilə cızdığı əraziləri Mirzə Cəlil qələmi ilə çəkmişdir. Nəyin uğrunda mübarizə aparmaq, hansı coğrafiyada təmsil olunmaq sualına cavab verərkən bunu göstərmişdir.

Əlbəttə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan dili və varlığı dövlət səviyyəsində yenidən dərinləşməyə və möhkəmlənməyə doğru irəlilədi. Təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 ay yaşaması ilə və uzun illər bizim sovet ideologiyasında bu dövrün tam unudulması ilə bu proses dayandı. Sovet hakimiyyəti illərində azərbaycançılıq yalnız bir ideologiya idi. Vətənpərvərlik və sovet vətənpərvərliyinin içərisində Azərbaycan vətənpərvərliyi də etiraf olunan həqiqətlər idi. Bizim şairlərimiz, yazıçılarımız vətəni tərənnüm edən şeirlər yazmaqla, bir tərəfdən, Azərbaycan dilinin möhtəşəmliyini qoruyurdular, digər tərəfdən isə azərbaycançılıq tərbiyəsi, vətənpərvərlik tərbiyəsi aşılayırdılar.

Hesab edirəm ki, son 100 ildə, bu gün də daxil olmaqla, Azərbaycan haqqında ən mükəmməl, ən populyar şeir Səməd Vurğunun 29 yaşında, 1935-ci ildə yazdığı "Azərbaycan" şeiridir. Ondan sonra Azərbaycan mövzusunda onlarla şairimiz xeyli dərəcədə istedadla yazılmış mükəmməl şeirlər meydana qoysa da, hələ də Səməd Vurğunun "El bilir ki, sən mənimsən, yurdum, yuvam, məskənimsən" misraları ilə başlayan şeirinin zirvəsi fəth olunmamışdır. Əlbəttə, layiqli nümunələr də var. Böyük şairimiz Məmməd Arazın "Azərbaycan - mayası nur, qayəsi nur ki, hər daşından alov dilli ox ola bilər. Azərbaycan deyiləndə ayağa dur ki, ana yurdun öryinə toxuna bilər" misraları ilə başlayan şeiri populyar əsərlərdən biri sayılır. Belə nümunələr kifayət qədərdir. Bütövlükdə, bu şeirlər, Azərbaycan mövzusunda yazılan digər əsərlər sovet rejiminin beynəlmiləlçilik mühiti içərisində bizim milli kimliyimizi, milli dilimizin və vətənimizin varlığını qoruyub saxlamasına özünün böyük töhfəsini vermişdir.

Milli kimliyin qorunması və inkişafında Ulu Öndər Heydər Əliyevin rolu xüsusi qeyd olunmalıdır. Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə ölkəmizdə Sovet İttifaqının ideologiyasına toxunmadan, onu tənqid etmədən, amma Ulu Öndərin böyük ustalıqla həyata keçirdiyi Azərbaycançılıq siyasəti meydanda idi. Ulu Öndər Azərbaycan dilini 1978-ci ildə ilk dəfə olaraq Sovet Azərbaycanı Konstitusiyasına dövlət dili kimi daxil etdi. Digər tərəfdən isə Azərbaycanın ədəbiyyatda, mədəniyyətdə, incəsənətdə inkişaf etdirilməsinə geniş meydan açdı. Azərbaycanda böyük, görkəmli şəxsiyyətlərimizin yubileyləri keçirilirdi. Bizim nəsil onu çox yaxşı xatırlayır. İmadəddin Nəsiminin yubileyi ölkə miqyasında, Sovet İttifaqı miqyasında və hətta o zaman üçün kapitalist ölkəsi sayılan Fransada, Parisdə - UNESCO-da keçirilməsi bir əfsanə hesab olunur.

Nizami Gəncəvinin 840 illik yubileyini Ulu Öndər keçirməyə nail ola bildi. Bizim nəsil yaxşı bilir ki, Siyasi Büroda məsələ müzakirə olunarkən "840" rəqəminin yuvarlaq rəqəm olmadığını, yubiley rəqəmi olmadığını nəzərə çatdırmışdılar. Ulu Öndərin cavabı belə olmuşdu ki, əvvəlcə Nizami Gəncəvini oxuyun, onda görərsiniz ki, Nizami Gəncəvi bəşəriyyətə o səviyyədə töhfə vermiş adamlardan biridir ki, onun yubileyini yuvarlaq rəqəmlərlə ifadə etmək yox, anadan olmasının hər ilini ayrıca yubiley kimi keçirmək lazımdır.

Nəriman Nərimanovun 100 illik yubileyi böyük çətinliklərlə ölkəmizdə qeyd olundu. Çünki silahdaşlarının nəslindən hələ də sağ olanlar var idi. Stepan Şaumyanın oğlu Moskvada Kreml dairələrinə yaxın bir mövqedə idi. Mikoyan və başqa ermənilər də o dövrün adamları idilər. Ona görə Nərimanovun yubileyini sadəcə yazıçı səviyyəsində keçirməyə Kremlin etirazı yox idi. Amma Heydər Əliyev uzaqgörən dövlət xadimi kimi Nərimanovun yubileyini həm görkəmli dövlət xadimi, həm də böyük yazıçı formatında keçirmək istəyirdi. Yubiley iki il geciksə də, Ulu Öndər Sovet Azərbaycanının rəhbəri kimi buna nail ola bildi. Nəinki yubiley keçirildi, hətta Bakıda ona əzəmətli heykəl ucaldıldı.

Azərbaycanda azərbaycançılıq, milli-mənəvi varlıq, Azərbaycan dili və dövlətçiliyi başqa respublikalardan fərqli imkanlar qazandı. O zaman Sovet İttifaqı 70-ci illərdə özünün yeni bir inkişaf mərhələsinə - "inkişaf etmiş sosializm cəmiyyəti" mərhələsinə qədəm qoymuşdu. Bu isə sosializm nəzəriyyəsinə görə gələcək kommunizmin birinci fazası hesab olunurdu. Kommunizmin isə əsas prinsipi insanları bərabərləşdirməkdən ibarət idi. Buna görə də sovet ideologiyası "vahid sovet xalqı" ideyasını irəli sürmüşdü. Yəni SSRİ-yə daxil olan xalqların keçmişi, tarixi, şəxsiyyəti və dövlətçilik ənənələri əridilib ortadan çıxarılmalı, onların əvəzinə yeni, hibrid nəsil - "vahid sovet xalqı", "sovet adamı" anlayışı cəmiyyətə diktə edilməli idi.

Belə bir şəraitdə, Ulu Öndər Heydər Əliyevin dövlət siyasətində milli-mənəvi dəyərlərin əridilməsi siyasətinin həyata keçirildiyi bir vaxtda, onun milli dəyərlərə qayıdış, Azərbaycançılıq siyasəti və görkəmli şəxsiyyətlərin milli iftixar mənbəyinə çevrilməsi üçün atdığı addımlar, əlbəttə, zamanına görə qəhrəmanlıq idi. Azərbaycan dilinin dövlət dili kimi Konstitusiyaya daxil olmasını nəzərə alsaq, bu, sovet dövlətinin apardığı siyasətə tam mütənasib (əslində əks) idi. Sovet dövləti eyniləşdirmə və unutdurma siyasəti aparırdı, Heydər Əliyev isə özünü tanımaq, özünə qayıdış və dilini dövlət dilinə çevirmək yolunu tutmuşdu.

15 respublikadan ibarət olan Sovetlər İttifaqında başqa heç bir respublikada bu səviyyədə milli-mənəvi dəyərlərə qayıdış baxımından iş həyata keçirilməmişdir. Hətta bəzi yerlərdə həmin "vahid sovet xalqı" anlayışına töhfə vermək üçün qurultaylar çağırılırdı. Buna ilk dəfə etiraz edən böyük qırğız yazıçısı Çingiz Aytmatov oldu. Onun "Əsrə bərabər gün" əsərini oxumağı tövsiyə edirəm; həmin mövzuda film də var, Milli Dram Teatrı tamaşaya da qoyub. Çingiz Aytmatovun əsərdə təsvir etdiyi "manqurtlaşdırma" siyasəti sovet dövlətinin xalqları eyniləşdirmə siyasətinə etirazın ifadəsi idi. O zaman hətta mahnı da var idi: "Mənim ünvanım nə küçədir, nə evdir, mənim ünvanım Sovetlər İttifaqıdır". Bu xoru bütün televiziyalar beynimizə yeridirdi, amma Heydər Əliyev Azərbaycançılıq siyasətini həyata keçirirdi.

# rəqəmsal təfəkkürün qovşağında



Hətta o zamanın şərtlərinə uyğun gəlməyən vətənpərvər milli ziyalıları qoruyurdu. Məsələn, Bəxtiyar Vahabzadəni "Gülüstan" poemasına görə cəzadan xilas etdi. Rus dilinin hakim dil olması siyasəti aparılsa da, o, Azərbaycan dilini xilas etdi. Azərbaycanın zorla Rusiya tərkibinə daxil olduğunu açıq şəkildə deyən Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadovun mövqeyini müdafiə etdi. Onların bir çoxu əsərlərinə görə dövlət mükafatı aldı, deputat seçildi, fəxri ad aldı. Bu cür ziyalılara toxunulmazlıq təmin edərək onların vasitəsilə milli təfəkkürü ölkədə yaymaq siyasətini həyata keçirdi.

Eyni zamanda, Ulu Öndərin sovet dövründə apardığı bu siyasət xalqımızı gələcək dövlət müstəqilliyinə hazırlamağa xidmət edirdi. Həqiqətən də dövlət müstəqilliyi əldə olunanda Azərbaycan xalqı və gəncləri dövlət ideologiyasını müəyyən etmək baxımından heç bir sual qarşısında qalmadı. Heydər Əliyevin toxumlarını səpdiyi azərbaycançılıq ideyaları dərhal müstəqil dövlətin təməlinə çevrildi.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qarabağda qazandığı böyük Zəfər, 20 ildən artıq rəhbərliyi dövründə əldə etdiyi möhtəşəm qələbələr, suverenliyimizin və ərazi bütövlüyümüzün tam təmin olunması ilə azərbaycançılıq əsasında qurulan müstəqil Azərbaycan dövlətini tam yeni bir inkişaf mərhələsinə gətirib çatdırmışdır. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev Qalib xalqın Qalib Lideri kimi nəinki regionda, dünyada böyük nüfuza malik olan dünya liderlərindən biridir. "Söz sahibi Azərbaycan" anlayışı bu cür təkamül prosesləri keçərək, müqavimətləri qıraraq gəlib bu günlərə çatmışdır. Biz bu gün azad, müstəqil və suveren Azərbaycan dövlətinin vətəndaşı olmağımızla qürur duyuruq. Öz bayrağımıza, himnimizə, liderimizə qarşı iftixar duyğusu keçiririk.

Azərbaycan dövlətçiliyi müxtəlif mərhələlərdən keçmişdir. 1918-1920-ci illərdə olan Azərbaycan Xalq Cümhuriyyətindən sonra Azərbaycan Sovet Sosialist Respublikası SSRİ-nin tərkib hissəsi idi, müstəqil deyildi. Biz müstəqil dövlət kimi yenidən 1991-ci ildə tamamilə yeni bir inkişaf mərhələsinə qədəm qoyduq. Müstəqil Azərbaycan dövləti də özlüyündə bir neçə mərhələdən keçmişdir və Azərbaycanın humanitar-ictimai düşüncəsinə aid olan bu məsələni də burada sizə deməyi vacib sayıram.

Müstəqilliyimizin başlanğıc illərində sosialist dövlətdən hüquqi, demokratik dövlətə doğru addım atıldı. Müstəqil respublikanın hüquqi, demokratik inkişafı dünyada gedən proseslərlə həmahəng idi. Dünyada "informasiya cəmiyyəti" yarandı. XX əsrin 90-cı illərinin ortalarından başlayaraq XXI əsrin əvvəllərinə qədər bütün dünya informasiya cəmiyyəti deyilən bir dövrə qədəm qoydu. Azərbaycan da bu texnoloji cəmiyyətin prinsiplərinə uyğun inkişaf etdi. Bu, ikinci mərhələ idi.

Üçüncü mərhələ, məncə, 2011-ci ildə elan olunan Dördüncü Sənaye İnqilabının çağırışları ilə meydana gələn "rəqəmsal cəmiyyət" dövrüdür. Hazırda müstəqil Azərbaycan dövləti öz inkişafının rəqəmsal cəmiyyət dövrünü yaşayır. Bildiyiniz kimi, Birinci sənaye inqilabı XVIII əsrin ikinci yarısında Qərbi Avropada meydana gəldi. Ən böyük kəşfi buxar mühərrikinin yaradılması idi. Bu, əl əməyindən və kustar təsərrüfatdan sənayeyə keçid üçün başlanğıc oldu. Dünya bu inqilabla böyük bir sıçrayış etdi və bu proses XIX əsr boyu davam etdi.

XIX əsrin axırlarına yaxın enerji faktoru meydana çıxdı. Elektrik enerjisinin kəşfi ilə dünyada ikinci böyük sənaye inqilabı baş verdi. Təyyarələr, teleqraf, radio və s. yarandı, bəşəriyyət tam yeni bir cəmiyyətə qədəm qoydu. Birinci Dünya Müharibəsinin 1914-cü ildə başlaması ilə İkinci Sənaye İnqilabı bir növ öz mərhələsini tamamladı. Üçüncü Sənaye İnqilabı isə XX əsrin ortalarından başladı. Bu, daha çox elektronikanın və internetin meydana gəlməsi ilə əlaqədardır. Siyasi fikirdə və humanitar təfəkkürdə bu, "elmi-texniki inqilab" kimi səciyyələndirilir. Kosmosun fəthi, internetin yayılması və elektronikanın inkişafı bu dövrün nailiyyətləridir.

Dördüncü Sənaye İnqilabı 2011-ci ildə elan olundu, sürətlə yayıldı və artıq 2013-2014-cü illərdə bütün dünya bu inqilabın tərkibində olduğunu etiraf etdi. Bunun əsasında isə süni intellekt dayanır. Biz buxar mühərrikindən süni intellektə qədər üç yüz ilə yaxın bir inkişaf yolu keçmişik. Bu, həm texnoloji, həm də ictimai-siyasi və humanitar təfəkkürün dəyişməsinin əsas parametridir. Bu hərəkətverici qüvvələrin içərisində millətin öz milli varlığını qoruyub saxlaması, yəni iqtisadi və texnoloji inkişafla yanaşı, milli-mənəvi dəyərləri qorumaq hər xalqın öz üzərinə düşən vəzifədir.

Bizim üçün, bayaq dediyim kimi, XIX əsrdən etibarən oyanış dövrü başladı. "Azərbaycan" sözü bir kəlmədən mənəviyyata, millətin qəlbinə köçdü və biz öz milli varlığımızı inkişaf etdirdik. Dünyada yüzlərlə kiçik xalqlar var ki, lideri olmadığına, asılı dövlət olduğuna və ya müstəmləkə olduğuna görə əriyib bitdi. Son 100 ildə dilini itirən, başqa millətlərin içində əriyən yüzlərlə etnik qrup var. Azərbaycan isə inkişaf etdi və bu dəyərləri günümüzə qədər çatdıra bildi.

Yekun olaraq bu hissəyə belə demək olar: Azərbaycan bizim vətənimiz və idealımızdır, Azərbaycançılıq isə müstəqil dövlətimizin dövlətçilik ideologiyasıdır.

Azərbaycanşünaslıq nədir? Azərbaycanşünaslıq - harada yaşamasından asılı olmayaraq, Azərbaycan xalqının ölkəsini, coğrafiyasını, mədəniyyətini, iqtisadiyyatını, milli mənsubiyyətini bütün yönləri ilə (elmi, texniki, ictimai, humanitar) öyrənən elmdir. Azərbaycanşünaslıq Azərbaycançılıq ideologiyasının tərkibinə daxildir. Azərbaycan dili, Azərbaycan xalqı, Azərbaycan dövlətçiliyi və Azərbaycan milli-mənəvi dəyərləri - Azərbaycançılıq konsepsiyasının dörd əsas təməl dəyəridir.

Bizim Akademiya humanitar və ictimai elmlər yönümlü olduğuna görə, biz ədəbiyyatda, tarixdə, fəlsəfədə və sosiologiyada məhz Azərbaycan xalqının təkamülünü və azərbaycançılığın formalaşma mərhələlərini dərindən bilməliyik. Bu, bizim ana dili və vətən qarşısındakı mənəvi borcumuzdur. "Azərbaycan dili" anlayışı XIX əsrdə mətbuatda çıxsa da, 1978-ci ildə Ulu Öndər Heydər Əliyev tərəfindən Konstitusiyaya daxil edilənə qədər rəsmi dövlət statusu belə möhkəm deyildi. 1995-ci ildə qəbul olunmuş Konstitusiyada da bu, dövlət dili kimi təsdiq olundu.

"Azərbaycan xalqı" anlayışı da çox maraqlıdır. Bu anlayış Azərbaycan coğrafiyasında yaşayan bütün xalqları özündə birləşdirir. Ölkəmizdə onlarla etnik qrup yaşayır və Azərbaycan dili onların hər birinin dilidir. Məncə, "Azərbaycan dili" və "Azərbaycan xalqı" anlayışı Ulu Öndər Heydər Əliyevin görkəmli dövlət xadimi kimi bir kəşfidir. Bu, çoxmillətli dövlətdə bütün xalqları və etnik qrupları birləşdirən mükəmməl bir təlimdir. Məhz bu təlim sayəsində bizim multikultural cəmiyyətimiz ahəngdar şəkildə yaşayır və heç bir ayrı-seçkiliyə yer qoymur.

Azərbaycanşünaslıq özündə təbiət elmlərini, texniki və dəqiq elmləri də birləşdirir. Kimya, biologiya, fizika, riyaziyyat - hamısı bu sahənin tərkib hissələridir. Lakin etiraf edək ki, azərbaycanşünaslığın əsas hərəkətverici qüvvəsi ictimai və humanitar elmlərdir: tarix, ədəbiyyat, dil, incəsənət, arxeologiya və etnoqrafiya onun təməl istiqamətləridir. Milli Elmlər Akademiyası Azərbaycanşünaslığın əsas mərkəzidir. Biz Azərbaycan xalqının milli mənafelərini dövlət maraqlarına və bəşəri dəyərlərə uyğun öyrənməliyik.

Müstəqilliyimizin 35 illiyini qeyd etdiyimiz bu dövrdə qarşımızda hələ də keçmişdən qalan bəzi problemlər var. Gənc tədqiqatçılara bunları deməyi borc bilirəm. Birincisi, Azərbaycan elmində ədəbi və tarixi şəxsiyyətlərin arzuolunan səviyyədə öyrənilməməsidir. Sovet dövründə "vahid sovet xalqı" nəzəriyyəsinə görə, şəxsiyyətlərin tədqiqi deyil, yalnız problemlərin öyrənilməsi məqsəd qoyulmuşdu. Məsələn, Səfəvi dövlətində ordu, xarici siyasət və iqtisadiyyat öyrənilirdi, amma dövlətin rəhbəri Şah İsmayıl Xətai haqqında real elmi biz uzun zaman yalnız xarici müəlliflərdən oxuyurduq. Eyni sözləri Əfşarlar dövləti haqqında da demək olar.

Mən şadam ki, biz müstəqilliyin 35-ci ilində Nadir şah haqqında kitabın təqdimatını keçirdik. O, bizim xalqımızın qəhrəmanıdır. Babək haqqında da - mütəxəssislər buradadır; məsuliyyətlə deyirəm, - bu gün əlimizdə azərbaycanlı müəllifin azərbaycançılıq əsasında yazdığı fundamental kitablar hələ də azdır; daha çox xarici mənbələrə istinad edirik. Filosofumuz Əbülhəsən Bəhmənyar X əsrdə özünə "Azərbaycanlı" təxəllüsü götürmüşdü. Bu, böyük bir mesajdır. Amma Bəhmənyar haqqında bir monoqrafik tədqiqatımız varmı? Əbdülqadir Marağayi orta əsr musiqi nəzəriyyəsini yaratmışdır, hamı ondan iftixarla danışır, amma onun kimliyinə cavab verən kitabımız varmı? Yoxdur.

Azərbaycan xalqı ensiklopediyalara sığmayacaq qədər böyük şəxsiyyətlər yetirmişdir, amma kitabxanalarımızı dolduracaq qədər onlar haqqında kitab yoxdur. Biz həm problemləri, həm də şəxsiyyətləri paralel öyrənməliyik. Artıq Akademiyada ədəbi-tarixi şəxsiyyətlərə yenidən qayıtmaq haqqında qərar qəbul etmişik. Elmi planlarda dəyişikliklər olub. Məsələn, Ədəbiyyat İnstitutunda sənətkarın elmi pasportunu əks etdirən kitabların sayı altmışı keçdi.

Bu yanaşma həm tariximizin daha dolğun öyrənilməsi, həm də gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi baxımından vacibdir. Çünki tarixi şəxsiyyətlər milli kimliyin canlı daşıyıcılarıdır. Onların öyrənilməsi yeni nəsillərdə milli qürur və mənəvi bağlılıq formalaşdırır.

Digər mühüm məsələlərdən biri Azərbaycan xalqının mənşəyi, etnogenez məsələsidir. Bu sahədə müxtəlif nəzəriyyələr mövcud olsa da, hələ də yekdil elmi nəticə formalaşmamışdır.

Eyni zamanda tariximizin və mədəniyyətimizin dövrləşdirilməsi məsələsi də yenidən nəzərdən keçirilməlidir. Sovet dövründə bu proses əsasən marksist yanaşma ilə ictimai-iqtisadi formasiya nəzəriyyəsinə əsaslanaraq aparılmışdır. Lakin bu model bütün xalqlar üçün universal deyil.

Azərbaycan xalqının inkişaf yolunu öyrənərkən əsas prinsip azərbaycançılıq olmalıdır. Bununla yanaşı, dünya sivilizasiyası ilə qarşılıqlı əlaqələr də nəzərə alınmalıdır. Çünki Azərbaycan həm milli, həm də qlobal inkişaf proseslərinin bir hissəsidir.

Xalqın keçdiyi real tarixi, ictimai və siyasi inkişaf yolu, azərbaycançılıq amili və bəşər sivilizasiyası kontekstində birgə şəkildə araşdırılmalıdır. Məncə, bu yanaşma müstəqillik dövründə tarixə, ədəbiyyata, mədəniyyətə və ümumilikdə təkamül proseslərinə baxışın əsasını təşkil etməlidir.

Azərbaycan ədəbiyyatı tarixinin artıq yeni dövrləşmə konsepsiyası əsasında yeddi cildi nəşr olunmuşdur. Marksist dörd mərhələli bölgü əvəzinə, ədəbiyyatın inkişaf yolu daha geniş və əsaslandırılmış mərhələlər üzrə təsnif edilmişdir. Bu qərar çoxsaylı müzakirələrdən sonra həm ölkəmizdə, həm də Türk dünyasında qəbul olunmuşdur.

Həmçinin AMEA-nın Tarix və Etnologiya İnstitutu artıq dövrləşməni marksist sxem əsasında deyil, Azərbaycan dövlətçiliyinin mərhələləri əsasında qurur. Qədim dövlət qurumlarından başlayaraq müasir dövrə qədər uzanan bu yanaşma həm elmi baxımdan əsaslıdır, həm də dövlət xadimlərinin, sərkərdələrin və tarixi şəxsiyyətlərin rolunu daha dolğun şəkildə təqdim etməyə imkan yaradır.

Memarlıq və incəsənət sahəsində də dövrləşmə ilə bağlı yeni elmi axtarışlar aparılır. Azərbaycan musiqişünaslığı və ümumilikdə incəsənətin inkişaf mərhələləri ilə bağlı tədqiqatlar bunu sübut edir. Lakin təəssüf ki, bu proseslərdən gənc nəsil kifayət qədər xəbərdar deyil. Bu baxımdan humanitar elmlərdə düşüncə tərzinin yenilənməsi zəruridir. Müstəqillik dövründə Ulu Öndər Heydər Əliyev tərəfindən formalaşdırılan azərbaycançılıq fəlsəfəsinə keçid prosesi elmi mühitdə daha geniş şəkildə mənimsənilməlidir. Bu istiqamətdə elmi şuralar və akademik strukturlar səviyyəsində müzakirələr aparılır və müəyyən təşkilati addımlar atılır.

Gənc tədqiqatçılar Azərbaycan tarixinin, ədəbiyyatının və ictimai fikrinin yeni dövrləşmə prinsiplərini dərindən mənimsəməli və öz elmi fəaliyyətlərində bu yanaşmanı tətbiq etməlidirlər. Yalnız bu halda müstəqil dövlətin ideologiyasına uyğun, yeni elmi təfəkkürə malik nəsil formalaşdırmaq mümkün olacaqdır.

Eyni zamanda, keçmişdən qalan stereotiplərdən də imtina olunmalıdır. Tarixi şəxsiyyətlərə birtərəfli yanaşma, onları yalnız "istismarçı sinif" kimi qiymətləndirmək kimi köhnə yanaşmalar artıq öz aktuallığını itirmişdir. Bu şəxsiyyətlərə milli tariximizin və mədəniyyətimizin ayrılmaz hissəsi kimi obyektiv yanaşmaq lazımdır.

Müasir dövrdə dünya artıq yeni mərhələyə - rəqəmsal və süni intellekt əsaslı inkişaf mərhələsinə qədəm qoymuşdur. İnformasiya cəmiyyəti mərhələsi tədricən arxivə çevrilir və onun yerini rəqəmsal cəmiyyət tutur. Bu yeni mərhələdə sadəcə informasiya kifayət deyil - əsas tələb intellektual yanaşma və dərin elmi təfəkkürdür.

Bu proseslər fonunda Prezident İlham Əliyev tərəfindən həyata keçirilən təşəbbüslər, xüsusilə beynəlxalq tədbirlərin ölkəmizdə təşkili, yeni texnologiyaların və biliklərin Azərbaycana transferinə mühüm töhfə verir. Bu isə cəmiyyətimizdə həm azərbaycançılıq düşüncəsinin, həm də rəqəmsal təfəkkürün paralel inkişafına şərait yaradır.

Rəqəmsal dövrün əsas xüsusiyyəti ondan ibarətdir ki, o, yalnız texnologiya deyil, həm də yeni düşüncə tərzi tələb edir. Bilik və məlumat anlayışları ilə müqayisədə elm daha sistemli və strukturlaşdırılmış yanaşmanı ifadə edir və cəmiyyətin inkişafında həlledici rol oynayır.

Tarix göstərir ki, hansı cəmiyyətdə elm, mədəniyyət və humanitar düşüncə üstün mövqe tutubsa, orada sabitlik, harmoniya və inkişaf təmin olunub. Əksinə, milli-mənəvi dəyərlərin zəif olduğu cəmiyyətlərdə qeyri-sabitlik və inkişaf problemləri daha çox müşahidə olunur.

Bu baxımdan, rəqəmsal təfəkkürlə humanitar düşüncə bir-birindən ayrı deyil, əksinə, bir-birini tamamlayan vəhdət təşkil edir. Müasir inkişaf modeli məhz bu sintez üzərində qurulmalıdır.

Dördüncü Sənaye İnqilabının əsas xüsusiyyəti də bundadır ki, artıq süni intellekt yalnız texniki sahələrə deyil, humanitar elmlərə, tibbə, təhsilə və gündəlik həyatın bütün sahələrinə nüfuz edir. Bu isə bütün bilik sahələrinin inteqrasiyasını zəruri edir.

Beləliklə, müasir dövrdə inkişafın əsas şərti - milli-mənəvi dəyərlərlə zəngin humanitar düşüncə ilə rəqəmsal və texnoloji təfəkkürün vəhdətidir. Bu vəhdət həm cəmiyyətin, həm də ayrı-ayrı fərdlərin inkişafının əsas modelidir.

Dördüncü Sənaye İnqilabının çağırışlarına cavab vermək üçün dövlət başçımız tərəfindən bir sıra mühüm qərarlar qəbul edilmişdir. 2026-cı ildə süni intellekt strategiyası, rəqəmsal inkişaf və Azərbaycanın rəqəmsal arxitekturası haqqında ölkə başçısının sərəncamları imzalanmış, nəhayət, rəqəmsal inkişafın həyata keçirilməsi üçün Dövlət Proqramı və Rəqəmsal İnkişaf Şurası yaradılmışdır.

*(davamı 4-cü səhifədə)*

# Azərbaycan elmi: Humanitar və rəqəmsal təfəkkürün qovşağında

*(əvvəli 3-cü səhifədə)*

Cənab Prezidentin Fərmanı ilə Birinci vitse-prezident Mehriban xanım Əliyeva Rəqəmsal İnkişaf Şurasının sədri kimi ölkəmizdə bu prosesin inkişafına mühüm töhfələr verir.

Biz də ölkəmizdə gedən proseslərə uyğun olaraq, 2023-cü ilin yanvar ayında AMEA-nın Rəyasət Heyəti aparatında "Elektron Akademiya" şöbəsi yaratmışıq. Bu illər ərzində biz Elektron Akademiya hərəkatına keçmişik və artıq süni intellekt və rəqəmsal inkişafa əsaslanan yeni mərhələyə doğru inkişaf edirik. Dövrün çağırışlarından irəli gələrək, "Elektron Akademiya" şöbəsi və institutlarımızdakı "Elektron xidmətlər" şöbələri "rəqəmsal elm" və "süni intellekt" şöbələri kimi yenidən təşkil edilmişdir. Eyni zamanda institutlarımızda rəqəmsallaşma üzrə direktor müavinləri ştatları ilə bağlı əmrlər hazırlanır. Süni intellekt və rəqəmsallaşma təfəkkürlə yanaşı, idarəetmə sisteminə də sürətlə daxil olur.

Biz rəqəmsal inkişafa xidmət edən elmi tədqiqatların aparılmasını təmin etmək istəyirik. Bunun üçün rəqəmsal şöbələr köməkçi strukturdan çıxarılaraq elmi tədqiqat şöbələrinə çevrilir. Yəni rəqəmsal intellekt şöbəsi yalnız texnoloji tətbiqlərlə deyil, həm də ədəbiyyatın, mədəniyyətin, incəsənətin və tarixin tədqiqi ilə məşğul olur.

Rəqəmsal texnologiya ilə rəqəmsal təfəkkür bir-birini tamamlamalıdır. Rəqəmsal texnologiya, rəqəmsal təfəkkür və humanitar düşüncə ictimai fikir sistemində bir yerdə olduqda xalq, dövlət, Akademiya və elm daha güclü olur.



Mən bu çıxışımda qeyd etdiyim məsələlərin artıq elmi ədəbiyyatda yer almalı olduğunu hesab edirəm. Əgər bu proseslər həyata keçirilməsə, humanitar təfəkkürün azərbaycançılıq əsasında formalaşması, dövlətçilik və ədəbi şəxsiyyətlərin tədqiqi, texnoloji inkişafla paralel getməsi mümkün olmayacaqdır.

Biz nə qədər xarici dil bilsək də, əsas olan öz milli düşüncə sistemimizi qorumaqdır. Akademiyanın 80 illik yubileyində ölkə Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan dili və azərbaycançılıq dəyərləri ilə bağlı verilən çağırışlar bu baxımdan xüsusi əhəmiyyət daşıyır.

Prezidentin çağırışına uyğun olaraq, Azərbaycan dilinin saflığının qorunması istiqamətində bir sıra tədbirlər görülmüşdür. Orfoqrafiya lüğəti yeni formatda hazırlanır və dil korpusu üzərində işlər davam edir. Bu sahədə ilk dəfə olaraq geniş korpus layihəsi gələn il tamamlanacaq.

Biz humanitar təfəkkürün müasir Azərbaycanın reallıqlarına uyğunlaşdırılmasını, keçmişdən gələn artıq elementlərdən təmizlənməsini və elmi əsaslarla inkişafını təmin etməliyik. Eyni zamanda, tədqiqatçılar və intellektual şəxslər ölkənin tarixini, mədəniyyətini və şəxsiyyətlərini milli və dövlətçilik prizmasından dəyərləndirməlidirlər.

XXI əsrdə yeni tipli vətəndaş həm humanitar, həm də rəqəmsal təfəkkürə malik olmalıdır. Süni intellekt və rəqəmsal sənaye inqilabı bu yeni mərhələnin əsas tələblərini formalaşdırır.

İnanıram ki, bu gün apardığımız müzakirələr sizə daha dərindən düşünmək, tədqiqatları genişləndirmək və proseslərə daha sistemli yanaşmaq imkanı verəcək".

*Akademik İsa Həbibbəyli ustad dərsinin sonunda Məmməd Aslanın "Mənim ürəyimdə" şeirini səsləndirib, iştirakçıların suallarını cavablandırıb.*

*Daha sonra AMEA-nın Mərkəzi Elmi Kitabxanası tərəfindən gənclərə kitablar hədiyyə olunub.*

*Həmçinin Gənclər Akademiyası adından akademik İsa Həbibbəyliyə hədiyyə təqdim olunub, xatirə şəkli çəkdirilib.*

# "Dünya hərb sənətinin Nadir şah zirvəsi" kitabının təqdimatı

**Aprelin 16-da Mərkəzi Elmi Kitabxanada (MEK) AMEA-nın müşaviri, akademik Yaqub Mahmudovun və professor Tofiq Mustafazadənin "Dünya hərb sənətinin Nadir şah zirvəsi" kitabının təqdimat mərasimi keçirilib.**



Tədbir iştirakçıları əvvəlcə akademik Yaqub Mahmudovun əsərlərindən ibarət sərgi ilə tanış olublar. Həmçinin Mərkəzi Elmi Kitabxanada bu gün yaradılan "Akademik Yaqub Mahmudovun kitablarından ibarət fond" oxuculara təqdim edilib.

Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli tariximizin qaranlıq səhifələrinə işıq salan kitabın elmi əhəmiyyətini qeyd edib. O, ictimaiyyətə təqdim olunan bu əsərdə arxiv materiallarına və mühüm sənədlərə əsaslanaraq tariximizin vacib məqamlarına dair mühüm faktların oxuculara çatdırıldığını söyləyib.

AMEA rəhbəri bildirib ki, Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətinin birinci mərhələsində dövlətçilik tariximizə sistemli şəkildə qayıdış baş vermiş, tarixi şəxsiyyətlərimizin elmi əsaslarla yenidən qiymətləndirilməsi prosesi başlanılmışdır. Bu mərhələdə Azərbaycanın inkişafında müstəsna xidmətləri olmuş dahi şəxsiyyətlərin yubileylərinin dövlət səviyyəsində qeyd olunması mühüm ənənəyə çevrilmişdir.

Akademik İsa Həbibbəyli vurğulayıb ki, görkəmli dövlət xadimi Nəriman Nərimanovun 100 illik yubileyi Ulu Öndərin təşəbbüsü ilə 1972-ci ildə qeyd edilmiş, Heydər Əliyev 28 iyul 1981-ci ildə "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 840 illik yubileyinin keçirilməsi haqqında" qərar imzalamışdır. Bu faktlar şəxsiyyətə qayıdış siyasətinin ardıcıl və məqsədyönlü xarakter daşıdığını açıq şəkildə göstərir.

"Müstəqillik illərində tarixi şəxsiyyətlərin irsinin sistemli şəkildə öyrənilməsi və cəmiyyətə təqdim olunması istiqamətində həyata keçirilən dövlət siyasəti Prezident İlham Əliyev tərəfindən ardıcıl və yüksək səviyyədə davam etdirilmişdir", - deyən AMEA rəhbəri son illərdə "İmadəddin Nəsimi ili", "Nizami Gəncəvi ili", "Heydər Əliyev ili"nin elan olunmasının müstəqil Azərbaycanın müasir inkişaf mərhələsində dövlət başçısının milli-mənəvi dəyərlərə və dahi şəxsiyyətlərin irsinə göstərdiyi xüsusi diqqət və qayğının aydın ifadəsi olduğunu diqqətə çatdırıb.

Akademik İsa Həbibbəyli vurğulayıb ki, görkəmli tarixi şəxsiyyətlərimizin zəngin həyat və fəaliyyətinin elmi əsaslarla araşdırılması daha da genişləndirilməli, onların zəngin irsi gənc nəsillərin milli şüurunun formalaşmasında mühüm rol oynayan davamlı qürur və iftixar mənbəyinə çevrilməlidir.

O, dünya hərb sənətinin dahilərindən biri olan Nadir şah Əfşar haqqında indiyədək əsasən tərcümə mənbələrinə istinad etməklə məlumatların əldə olunduğunu söyləyib. Bildirib ki, akademik Yaqub Mahmudov və professor Tofiq Mustafazadənin həmmüəllif olduqları "Dünya hərb sənətinin Nadir şah zirvəsi" kitabında isə Şərq və Qərb mənbələri ilə yanaşı, Rusiya arxiv sənədləri və müxtəlif dillərdə nəşr edilmiş elmi tədqiqatlardakı faktik materiallar əsasında dahi Azərbaycan sərkərdəsinin həyat və fəaliyyətinə obyektiv elmi qiymət verilir.

Akademik İsa Həbibbəyli kitabın Azərbaycan dövlətçiliyinin öyrənilməsi baxımdan mühüm elmi mənbə olduğunu vurğulayıb, müəlliflərə yeni yaradıcılıq uğurları arzulayıb.

Sonra AMEA-nın Tarix və Etnologiya İnstitutunun baş elmi işçisi tarix elmləri doktoru Güntəkin Nəcəfli çıxış edərək nəşrin məziyyətlərindən danışıb, kitabı mühüm elmi-tarixi hadisə kimi yüksək dəyərləndirib. O, indiyədək Qərb və Rusiya tarixşünaslığında Nadir şah şəxsiyyətinə qeyri-obyektiv yanaşıldığını və dahi sərkərdənin xidmətlərinin kiçildildiyini söyləyib. Qeyd edib ki, "Dünya hərb sənətinin Nadir şah zirvəsi" kitabı bu cür saxtalaşdırılmış yanaşmalara elmi faktlara söykənən tutarlı cavabdır. Əsər müəlliflərin ortaya qoyduğu mükəmməl sənət nümunəsidir.

Güntəkin Nəcəfli vurğulayıb ki, Nadir şah haqqında obyektiv araşdırmaların aparılması və bu kimi nəşrlərin yazılması bu gün öz torpaqlarını 30 illik düşmən işğalından azad etmiş bir ölkənin vətəndaşları, xüsusilə də gənc nəsil üçün böyük əhəmiyyət daşıyır. Bu kimi əsərlər gənclərə tarixi şəxsiyyətlərimizi elmi və obyektiv meyarlar əsasında dəyərləndirmək imkanı yaradır.

Onun sözlərinə görə, kitabda tarixi mənbələr əsasında bir çox qaranlıq məqamlara aydınlıq gətirilib, cəmi 59 il ömür sürmüş, 11 il hakimiyyətdə olmuş Nadir şah Əfşarın obyektiv obrazı yaradılıb. Müəlliflər bu əsəri əziz müəllimləri - görkəmli ziyalılarımız Ədhəm Şahmalıyev, Mehdi Erivanski, Səidə İmanzadə, Əli Sultanlı, Əbdülkərim Əlizadə, Bəxtiyar Vahabzadə və Mehbalı Qasımovun əziz xatirələrinə həsr ediblər.

Tədbirdə Milli Məclisin Elm və təhsil komitəsinin sədri professor Anar İsgəndərov, millət vəkili, siyasi elmlər




doktoru, professor Hikmət Babaoğlu, Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işlər üzrə direktor müavini professor Eynulla Mədətli, millət vəkili, Tarix və Etnologiya İnstitutunun böyük elmi işçisi tarix elmləri doktoru Vasif Qafarov, millət vəkili, fəlsəfə üzrə fəlsəfə doktoru Cavanşir Feyziyev, Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutunun Humanitar elmlər şöbəsinin professor-məsləhətçisi tarix elmləri doktoru Mehman Süleymanov, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini fəlsəfə üzrə fəlsəfə doktoru Fuad Nurullayev, Əlyazmalar İnstitutunun şöbə müdiri tarix elmləri doktoru Tahirə Həsənzadə və başqaları nəşrlə bağlı fikirlərini bölüşüblər.

Çıxışlarda qeyd olunub ki, ictimaiyyətə təqdim olunan "Dünya hərb sənətinin Nadir şah zirvəsi" kitabında dahi Azərbaycan sərkərdəsi Nadir şahın hərbi və siyasi fəaliyyətindən, onun işğal olunmuş Səfəvi torpaqlarını, eləcə də ölkənin paytaxtını yadellilərdən azad etmək uğrunda mübarizəsindən, imperiyanın ərazisini daha da genişləndirməsindən bəhs edilir. Kitabda, həmçinin Nadir şah Əfşarın Hindistanı fəth edərək Səfəvi dövlətindən daha geniş ərazili yeni Azərbaycan Əfşarlar İmperiyası yaratması, böyük hökmdarın Türk dünyasında məzhəb ayrılığına son qoymaq siyasəti də diqqətə çatdırılır.

Bildirilib ki, bu kimi fundamental elmi tədqiqatlar xalqımızın çoxəsrlik tarixinin və görkəmli şəxsiyyətlərinin mötəbər mənbələr və arxiv sənədləri əsasında, azərbaycançılıq mövqeyindən dərindən öyrənilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Eyni zamanda, bu əsər Azərbaycan tarixşünaslığında Nadir şah şəxsiyyətinə obyektiv və elmi əsaslandırılmış baxış bucağının formalaşmasına sanballı töhfələr verir.

Sonda nəşrin həmmüəllifi, akademik Yaqub Mahmudov çıxış edərək tədbirin təşkilinə görə AMEA rəhbərliyinə, MEK-ə və iştirakçılara təşəkkür edib, gənc nəsli tariximizi sevməyə, öyrənməyə və təbliğ etməyə səsləyib. O, əsərin ərsəyə gəlmə prosesi barədə məlumat verərək bildirib ki, kitabın əsas üstünlüyü məhz ilkin mənbələrə və arxiv sənədlərinə söykənməsidir. Akademik Yaqub Mahmudov MEK-də sərgilənən kitablarını yeni yaradılan "Akademik Yaqub Mahmudovun kitablarından ibarət fond"a hədiyyə edib.

Qeyd edək ki, 472 səhifəlik "Dünya hərb sənətinin Nadir şah zirvəsi" kitabının elmi redaktoru tarix elmləri doktoru Mehman Süleymanov, elmi məsləhətçiləri Dünya Əfşarlar Dərnəyinin başqanı Şərəf Kocakaya və Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini, fəlsəfə üzrə fəlsəfə doktoru Fuad Nurullayevdir.

# Dövlət müstəqilliyimizin bərpasının 35 illiyinə həsr olunan elmi konfrans

**Aprelin 20-də AMEA-nın Mərkəzi Elmi Kitabxanasında dövlət müstəqilliyimizin bərpasının 35 illiyinə həsr olunmuş "Azərbaycan Respublikasının inkişaf yolunun siyasi-nəzəri əsasları və ideoloji xətt" mövzusunda respublika elmi konfransı keçirilib.**

Fəlsəfə və Sosiologiya İnstitutunun təşkilatçılığı ilə keçirilən tədbirdə AMEA əməkdaşları ilə yanaşı, ictimai-siyasi xadimlər, ziyalılar, tanınmış politoloq və siyasi şərhçilər, tədqiqatçılar və media nümayəndələri iştirak ediblər.

Tədbiri giriş nitqi ilə açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli konfransın həm elmi, həm də ictimai-siyasi baxımdan xüsusi əhəmiyyət daşıdığını bildirib. O, Azərbaycan Respublikasının müstəqilliyinin bərpasının 35 illiyinə həsr olunmuş konfransı müstəqil dövlətçilik tariximizin əsas mərhələlərinin elmi müstəvidə təhlili baxımından mühüm platforma kimi dəyərləndirib. Qeyd edib ki, bu konfrans yalnız tarixi faktların xatırlanması deyil, eyni zamanda müstəqil dövlətçilik ideyasının siyasi-nəzəri əsaslarının dərindən öyrənilməsi üçün əhəmiyyətli tədbirdir.

Akademik İsa Həbibbəyli çıxışında Azərbaycan xalqının müstəqillik idealları uğrunda apardığı mübarizənin tarixindən bəhs edərək bildirib ki, cəmi 23 ay mövcud olmasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti milli dövlətçilik tariximizdə mühüm bir mərhələni təşkil edib. AXC müasir Azərbaycan dövlətinin siyasi, hüquqi və ideoloji əsaslarını formalaşdırıb, milli müstəqillik düşüncəsinin təməlini qoyub.

AMEA rəhbəri müstəqil dövlətçilik ideyasının qorunması, şaxələndirilməsi və real siyasi xəttə çevrilməsinin Ulu Öndər Heydər Əliyevin adı ilə bilavasitə bağlı olduğunu vurğulayıb. Qeyd edib ki, Sovet İttifaqının milli kimlikləri sıxışdırdığı bir dövrdə Heydər Əliyevin təşəbbüsü ilə Nizami Gəncəvinin 840 illik yubileyinin keçirilməsi azərbaycançılıq ideologiyasının yaşadılması baxımından əhəmiyyətli tarixi hadisə olub.

Onun sözlərinə görə, Azərbaycanın dövlət müstəqilliyinin yenidən bərpası və möhkəmləndirilməsi də məhz Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsi və uzaqgörən fəaliyyəti nəticəsində mümkün olub. Heydər Əliyev Moskvada fəaliyyət göstərdiyi dövrdə belə Azərbaycanın Milli Azadlıq Hərəkatına ideoloji və siyasi dəstək verib, bu mübarizənin qaçılmaz olduğunu açıq şəkildə bəyan edib.

Xüsusilə 20 Yanvar hadisələri zamanı Heydər Əliyevin həyatını riskə ataraq verdiyi bəyanatın əhəmiyyətini vurğulayan AMEA prezidenti qeyd edib ki, həmin çıxış yalnız Azərbaycan üçün deyil, bütövlükdə keçmiş Sovet məkanında müstəqillik ideyasının açıq siyasi bəyanı kimi tarixə düşüb.





"Azərbaycan xalqı üçrəngli bayrağı Sovet İttifaqı dağılmamışdan əvvəl siyasi səviyyəyə qaldıran Heydər Əliyevin xidmətlərini heç zaman unutmayacaq", - deyən akademik İsa Həbibbəyli vurğulayıb ki, Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan bütün sahələr üzrə inkişaf etmiş, beynəlxalq münasibətlər sistemində söz sahibi olan dövlətə çevrilmişdir.

Akademik İsa Həbibbəyli qeyd edib ki, bu gün Ümummilli Liderin müəyyənləşdirdiyi siyasi kurs Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ardıcıl və uğurla davam etdirilir.

O, otuz ilə yaxın işğal altında qalmış torpaqların azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpa olunmasının müasir tariximizin ən mühüm və şanlı mərhələlərindən biri olduğunu vurğulayıb. Bildirib ki, Prezident İlham Əliyevin beynəlxalq arenada apardığı prinsipial siyasət və Zəngəzur dəhlizinin açılması ilə bağlı proseslər Azərbaycanın regionda və dünyada artan geosiyasi rolunu aydın şəkildə nümayiş etdirir.

AMEA rəhbəri dövlət başçısının qalib xalqın qalib lideri kimi dünya liderləri arasında xüsusi nüfuza malik olduğunu deyərək vurğulayıb ki, Antalya Diplomatiya Forumunda Prezident İlham Əliyevin çıxışı Azərbaycanın qlobal sülh və təhlükəsizlik məsələlərində aparıcı mövqeyini bir daha təsdiqləyib.

Akademik İsa Həbibbəyli dövlət müstəqilliyimizin 35 illiyinə həsr olunmuş bugünkü konfransın müstəqillik tariximizin yenidən, daha dərindən və elmi əsaslarla öyrənilməsinə ciddi təkan verdiyini söyləyib. Qeyd edib ki, Azərbaycan alimləri humanitar və ictimai elmlərin bütün sahələri üzrə azərbaycançılıq ideologiyası prizmasından bu istiqamətdə fundamental tədqiqatlar aparmalı, dissertasiya və monoqrafiyalarla elmi ictimaiyyətə töhfə verməlidirlər.

Sonra Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin sektor müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Asif Usubəliyev "Yeni reallığı şərtləndirən siyasət" mövzusunda məruzə ilə çıxış edib.

Asif Usubəliyev AMEA-nın bu mövzuya müraciət etməsini olduqca önəmli və sevindirici hadisə kimi qiymətləndirib. Onun sözlərinə görə, yeni siyasi reallıqların elmi müstəvidə müzakirəyə çıxarılması müxtəlif yanaşmaların formalaşmasına şərait yaradır. Məruzəçi bu mövzunun şərhi üçün çoxsaylı nəzəri və praktiki baxışların mövcud olduğunu söyləyib.

O, bugünkü tədbirin gələcək proseslərin başlanğıcı kimi qiymətləndirilməsinin zəruriliyinə toxunaraq vurğulayıb ki, cəmiyyəti narahat edən problemlərin müzakirəsi və onların həlli mexanizmlərinin axtarışı məhz bu kimi elmi platformalarda aparılmalıdır.

"Siyasi nəzəriyyələr və elmi yanaşmalar ölkənin dayanıqlı inkişafını təmin edən əsas intellektual dayaqlardan biridir", - deyən Asif Usubəliyev bildirib ki, ideologiya millətin inkişafını təmin edən əsas şərtlərdən biridir və strateji baxımdan tükənməz intellektual resurs kimi çıxış edir. Onun sözlərinə görə, qlobal miqyasda baş verən istənilən siyasi və ideoloji tendensiyalar fonunda milli maraqların qorunması və müqavimət qabiliyyətinin formalaşdırılması məhz ideoloji dayanıqlıqdan asılıdır. Bu prosesdə elmin aparıcı rol oynadığını qeyd edən məruzəçi bildirib ki, elmi biliklərin cəmiyyətə düzgün şəkildə inteqrasiyası və bu istiqamətdə birgə, ardıcıl addımların atılması zəruridir.

Məruzəçi ölkə daxilində müasir siyasi prosesləri səciyyələndirən əsas xüsusiyyətlərdən birinin siyasi dialoq olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, siyasi dialoq bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi daxili siyasətin aparıcı və strateji istiqamətlərindən birini təşkil edir.

Asif Usubəliyev vurğulayıb ki, siyasi dialoq yalnız qarşılıqlı ünsiyyət mexanizmi deyil, eyni zamanda cəmiyyətdə ideoloji həmrəyliyin təmin olunmasına xidmət edən mühüm siyasi alətdir. Siyasi müxtəlifliyin qorunması demokratik inkişafın əsas şərtlərindən biridir və siyasi dialoq məhz bu müxtəlifliyin sağlam şəkildə saxlanılmasını, fərqli baxışların konstruktiv müstəvidə uzlaşdırılmasını təmin edir.



Sektor müdiri əlavə edib ki, siyasi dialoqun institusional əsaslarla inkişaf etdirilməsi cəmiyyətin sabitliyinin möhkəmləndirilməsinə, milli birliyin güclənməsinə və uzunmüddətli siyasi dayanıqlığın təmin olunmasına xidmət edir.

Onun sözlərinə görə, hər bir ölkənin davamlı inkişafında, beynəlxalq nüfuzunun artmasında və effektiv siyasət yürütməsində dövlət başçılarının və siyasi liderlərin rolu həlledici əhəmiyyət daşıyır. Məhz onların strateji düşüncəyə əsaslanan idarəçilik bacarığı mənsub olduqları dövlətin yüksəlişini şərtləndirən əsas amillərdən biri kimi çıxış edir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qlobal miqyasda qəbul edilən nüfuzlu siyasi liderlərdən və görkəmli dövlət xadimlərindən biri kimi tanınır.

Asif Usubəliyev qeyd edib ki, dövlət başçısının siyasi fəaliyyətini səciyyələndirən əsas xüsusiyyətlərdən biri onun açıq və prinsipial mövqeyə malik olmasıdır. O, beynəlxalq və regional məsələlərlə bağlı mövqeyini açıq şəkildə ifadə etməkdən çəkinmir və sərt bəyanatlarının arxasında daim milli maraqlar dayanır. Bu siyasi xəttin əsas məqsədi ölkə daxilində sabitliyin və milli həmrəyliyin qorunub saxlanılmasıdır.

"Milli həmrəyliyin möhkəmləndirilməsi yalnız siyasi qərarlarla deyil, eyni zamanda cəmiyyətdə sağlam ideoloji mühitin formalaşdırılması ilə mümkündür", - deyən məruzəçi əlavə edib ki, bu baxımdan siyasi ideologiya cəmiyyəti birləşdirən, müxtəlif baxışları ümumi milli maraqlar ətrafında uzlaşdıran əsas mexanizmlərdən biri kimi çıxış edir. İdeoloji əsaslara söykənən siyasət milli birliyin qorunmasına, ictimai sabitliyin təmin olunmasına və dövlətin uzunmüddətli inkişaf strategiyasının uğurla reallaşdırılmasına xidmət edir.

Tədbirdə Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru, fəlsəfə üzrə fəlsəfə doktoru Fərhad Məmmədov "Azərbaycan Respublikasının Cənubi Qafqaz regional siyasəti", Bakı Dövlət Universitetinin Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müdiri, professor Rəbiyyət Aslanova "İntellektual elitanın cəmiyyətin modernləşməsində rolu", Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, professor İlham Məmmədzadə "Siyasi elm, fəlsəfə və ideoloji xətt problemi", həmin institutun direktor müavini, tarix elmləri doktoru Eynulla Mədətli "Azərbaycan-İran münasibətləri dəyişən dünya nizamı şəraitində", şöbə müdiri, fəlsəfə elmləri doktoru Füzuli Qurbanov "Azərbaycanda süni intellekt strategiyası və elmin inkişafına təsiri", şöbə müdiri, professor Rəna Mirzəzadə "Azərbaycanda birinci vitse-prezidentlik - innovativ siyasi-idarəetmə institutudur", Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının müdiri, professor İsaxan Vəliyev "Dövlət suverenliyinin konstitusion-hüquqi əsasları və dialoq problemi" və Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Şölət Zeynalov "Siyasi dialoqda elmin rolu və cəmiyyətin inkişaf perspektivləri" mövzusunda məruzələrini təqdim ediblər.

Daha sonra konfrans öz işini bölmələr üzrə davam etdirib.

Bölmə iclaslarında "Azərbaycan Respublikasının inkişaf yolunun siyasi-nəzəri, fəlsəfi, sosioloji və ideoloji əsasları", "Müstəqil Azərbaycanın beynəlxalq əlaqələrinə konseptual baxış",." Vətən müharibəsində Zəfəri şərtləndirən amillər və suverenliyə aparan yol xəritəsi", "Müasir Azərbaycanın "yumşaq güc" siyasəti: mədəni, ictimai və gender komponentləri", "Azərbaycan Respublikasının süni intellekt strategiyası və elmi inkişaf istiqamətləri" və "Azərbaycanın siyasətində dialoq və çoxpartiyalılıq" adlı məruzələr dinlənilib, müzakirələr aparılıb.

# Ümumi dilçilik elminin dərin tədqiqatçısı

**AMEA-da görkəmli dilçi alim, Əməkdar elm xadimi, Prezident təqaüdçüsü, filologiya elmləri doktoru, professor Cəfər Cəfərovun anadan olmasının 95 illik yubileyinə həsr olunmuş konfrans keçirilib.**

Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli professorun zəngin elmi irsinə toxunaraq bildirib ki, Cəfər Cəfərov Azərbaycan dilçilik elmində özünəməxsus məktəb yaradan simalardandır.

Akademik İsa Həbibbəyli alimin Azərbaycan dilini dünya dilləri ilə müqayisədə, ümumi dilçilik elminin nailiyyətləri ilə vəhdətdə, dərindən tədqiq etdiyini deyib. Qeyd edib ki, alimin tədqiqatlarının zahiri tərəfində ciddi, mükəmməl və fundamental tədqiqatçılıq prinsipləri, daxili qatında isə sarsılmaz Azərbaycançılıq məfkurəsi, vətənpərvərlik və millilik amilləri dayanır. Diqqətə çatdırıb ki, alimin tədqiqat fəaliyyəti və sadiq Azərbaycançılıq mövqeyi onun bütöv şəxsiyyətini və ziyalı obrazını tamamlayır.

Akademik İsa Həbibbəyli xatirələrini bölüşərək, Cəfər müəllimin tələbəsi olmuş biri kimi onun obyektivlik prinsipini uca tutduğunu, elmi dəqiqliyi və qayğıkeşliyinin tələbələrinin yaddaşına həkk olunduğunu deyib.

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru professor Nadir Məmmədli çıxışında professor Cəfər Cəfərovun Azərbaycan dilçiliyində açdığı yeni üfüqlərdən bəhs edib. Alimin bir sıra fundamental tədqiqatlarının - "Nitq hissələrində keçid prosesləri", "Müasir Azərbaycan ədəbi dilində inkarlığın ifadə vasitələri", "Nitq hissələrində keçid prosesləri və konversiya" monoqrafiyaları, eləcə də "Müasir Azərbaycan dilinin morfologiyası" kimi dərsliklərinin elmimiz üçün əvəzsiz mənbələr olduğunu bildirib.






Sonra çıxış edən millət vəkili, yazıçı, professor Əlibala Məhərrəmzadə alimin böyük pedaqoq kimi gənc nəslin tərbiyəsindəki müstəsna xidmətlərindən danışıb. Qeyd edib ki, professor Cəfər Cəfərov Azərbaycan filologiyasının inkişafına mühüm töhfələr verib və gənc tədqiqatçıların formalaşmasında müstəsna rol oynayıb.

Konfransda filologiya elmləri doktoru Baba Məhərrəmli "Cəfər Cəfərovun elmi və pedaqoji fəaliyyəti" mövzulu məruzəsində alimin elmi yaradıcılığı ilə pedaqoji ustalığının vəhdət təşkil etdiyini, professorun nəzəriyyəni praktika ilə birləşdirərək dilçilik elminin tədrisində yeni standartlar müəyyənləşdirdiyini bildirib.

Professor Sayalı Sadıqova "Cəfər Cəfərovun yaradıcılığında morfologiyanın aktual problemləri" mövzusunda çıxış edərək, alimin tədqiqatlarının müasir dilçiliyə yeni baxış bucağı gətirdiyini deyib.

Yubiley tədbirində professor İlham Tahirov "Cəfər Cəfərovun yaradıcılığında nitq hissələrində keçid prosesi", professor İsmayıl Kazımov "Cəfər Cəfərovun yaradıcılığında sintaktik tədqiqatlar" mövzularında məruzələr səsləndiriblər. Qeyd olunub ki, Cəfər Cəfərov Azərbaycanın dilçilik elminin müxtəlif istiqamətlərində tədqiqatlar aparıb, pedaqoji fəaliyyəti ilə yanaşı, ana dilimizin çox mühüm elmi problemlərini tədqiq edib. Zəngin və əhatəli yaradıcılıq erudisiyası ilə fərqlənən alim filologiyamızın müxtəlif nəzəri məsələlərini araşdırıb.

ADPU-nun Filologiya fakültəsinin dekanı dosent Könül Həsənova, BDU-nun professoru Zahid Cəfərov və digər tanınmış alimlər çıxış edərək professor Cəfər Cəfərovun insani keyfiyyətləri və zəngin yaradıcılıq yolu barədə ürək sözlərini söyləyiblər.

Tədbirin sonunda professor Cəfər Cəfərov Azərbaycan dilçilik elminin inkişafındakı xidmətlərinə görə Fəxri fərmanla təltif olunub.

ELM

# AMEA-nın müxbir üzvü Qorxmaz İmanovun 85 illik yubileyi



**Aprelin 17-də AMEA-nın Mərkəzi Elmi Kitabxanasında Elm və Təhsil Nazirliyi Riyaziyyat İnstitutunun Sosial iqtisadi proseslərin qeyri-səlis modernləşdirilməsi laboratoriyasının müdiri, AMEA-nın müxbir üzvü Qorxmaz İmanovun 85 illik yubileyinə həsr olunmuş "İqtisad elminin inkişafında müasir texnologiyaların istifadə problemləri" mövzusunda elmi sesssiya keçirilib.**

Tədbir AMEA-nın İctimai Elmlər Bölməsi və Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin birgə təşkilatçılığı ilə baş tutub.

Əvvəlcə iştirakçılar AMEA-nın müxbir üzvü Qorxmaz İmanovun əsərlərindən ibarət sərgi ilə tanış olublar.

Yubiley tədbirini giriş nitqi ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli iqtisadçı-alim Qorxmaz İmanovun şərəfli və məhsuldar ömür yolu keçdiyini vurğulayıb. Qeyd edib ki, o, hələ Sovet hakimiyyəti dövründə yeni təfəkkürə malik iqtisadçı alim kimi formalaşaraq elmi ictimaiyyət tərəfindən tanınıb.

Akademik İsa Həbibbəyli Qorxmaz İmanovun iqtisadi proqnozlaşdırma modelləri kimi mühüm və mürəkkəb elmi istiqamətlər üzrə apardığı tədqiqatların onun 50 illik elmi fəaliyyətinin əsas xəttini təşkil etdiyini diqqətə çatdırıb.

Hazırda ölkəmizdə iqtisadi-riyazi proqnozlaşdırma modelləri sahəsində fundamental tədqiqatlar aparan alimlərin sayının məhdud olduğunu söyləyən AMEA rəhbəri bu gün cəmiyyətin inkişafında aparıcı mövqedə dayanan süni intellekt, rəqəmsal transformasiya və elmmetrik hesablamaların elmi bazasında məhz iqtisadi-riyazi proqnozlaşdırma modellərinin dayandığını vurğulayıb. Qeyd edib ki, bu modellərin formalaşması və rəqəmsal cəmiyyətin əsasını təşkil edən qərar qəbuletmə mexanizmlərinə çevrilməsi uzun və mürəkkəb elmi inkişaf yolunun nəticəsidir.

Akademik İsa Həbibbəyli Qorxmaz İmanovun iqtisadi qeyri-müəyyənlik problemləri və qeyri-səlis modellər anlayışlarını Azərbaycan elmi mühitinə gətirən alimlərdən olduğunu qeyd edib. Onun sözlərinə görə, bu, dünya elminə qeyri-səlis məntiq nəzəriyyəsini bəxş etmiş görkəmli Azərbaycan alimi Lütfi Zadənin ideyalarının iqtisadiyyat sahəsində tətbiqi əsasında formalaşmış yeni elmi istiqamətlərin yaranmasına təkan verib.

AMEA-nın müxbir üzvü Qorxmaz İmanovun Azərbaycan iqtisadiyyatının riyazi proqnozlaşdırılması sahəsində elmi məktəb yaratmış görkəmli ziyalılardan biri olduğunu deyən akademik İsa Həbibbəyli bildirib ki, alimin son 50 il ərzində apardığı elmi tədqiqatların böyük bir hissəsi Rusiya, Almaniya, ABŞ və digər ölkələrdə nüfuzlu elmi nəşrlərdə dərc olunub. O, Qorxmaz İmanovun dünyanın nüfuzlu beynəlxalq təşkilatlarının, o cümlədən Avropa İqtisadçılar Akademiyasının fəxri üzvü, İspaniya İqtisadiyyat və Maliyyə Elmləri Kral Akademiyasının xarici üzvü, eləcə də Ali Avropa Doktorlar Şurasının fəxri üzvü olduğunu diqqətə çatdırıb.

Alimin elmi fəaliyyətinin ETN İqtisadiyyat İnstitutu və İdarəetmə Sistemləri İnstitutu (Riyaziyyat İnstitutu) ilə sıx bağlı olduğunu söyləyən AMEA prezidenti onun rəhbərlik etdiyi laboratoriyanın bu sahənin inkişafında və yüksəkixtisaslı elmi kadrların hazırlanmasında mühüm rola malik olduğunu vurğulayıb.

Akademik İsa Həbibbəyli yubilyarın elmi-təşkilatçılıq fəaliyyətindən də bəhs edərək alimin beynəlxalq və respublika səviyyəli elmi tədbirlərdə fəal iştirak etdiyini, dəyərli məruzələrlə çıxış etdiyini, eyni zamanda rəhbərliyi ilə 31 fəlsəfə doktoru və 3 elmlər doktorunun yetişdirildiyini bildirib.

"AMEA Qorxmaz İmanovun timsalında novator, yenilikçi, dünya iqtisad elminin müsbət təcrübələrini Azərbaycana gətirən və tətbiq edən, müstəqil dövlətimizin elmi və iqtisadi inkişafına sanballı əsərləri ilə xidmət edən alim şəxsiyyətini yüksək qiymətləndirir", - deyə akademik İsa Həbibbəyli qeyd edib.

O, AMEA-nın müxbir üzvü Qorxmaz İmanova Azərbaycan akademik elminin inkişafına verdiyi töhfələrə görə təşəkkürünü bildirib, yeni elmi yaradıcılıq uğurları arzulayıb.

Sonra Azərbaycan İqtisadçılar İttifaqının sədri, millət vəkili, akademik Ziyad Səmədzadə "İqtisad elminin görkəmli nümayəndəsi AMEA-nın müxbir üzvü Qorxmaz İmanovun elmi fəaliyyəti haqqında" adlı məruzə ilə çıxış edib. O, alimin həyat və fəaliyyətindən, iqtisad elminin inkişafında, iqtisadçı elmi kadrların hazırlanmasında müstəsna xidmətlərindən danışıb. Bildirib ki, iqtisadiyyatın riyazi və instrumental üsulları sahəsində dünya elminə mühüm töhfələr vermiş Qorxmaz İmanov ömrünü iqtisadiyyat elminin tədqiqinə həsr edib, bu sahədə böyük məktəb yaradıb.

Akademik Ziyad Səmədzadə yubilyarın 1968-ci ildə Moskva şəhərində SSRİ EA Mərkəzi İqtisadi-Riyaziyyat İnstitutunda "Yüklərin daşınması prosesinin optimallaşdırılması məsələləri EHM və iqtisadi-riyazi üsulların tətbiqi" mövzusunda namizədlik, 1975-ci ildə isə "Milli iqtisadiyyatının optimal planlaşdırılmasının inteqral modellər sistemi" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etdiyini diqqətə çatdırıb. Vurğulayıb ki, o, 1983-cü ildə professor elmi adına layiq görülüb, 2017-ci ildə AMEA-nın müxbir üzvü seçilib.

Qorxmaz İmanovla tanışlığının 1960-cı illərin sonlarına təsadüf etdiyini söyləyən məruzəçi onun respublikada iqtisadi-riyazi üsullar sahəsində çalışan ilk alimlərdən biri olduğunu bildirib. O, yubilyarın Azərbaycanın sosial-iqtisadi, eləcə də sosial sistemlərin keyfiyyətinin qiymətləndirilməsinin qeyri-səlis modelləri, iqtisadi qeyri-müəyyənlik problemləri, dayanıqlı inkişafın milli strategiyasının qiymətləndirilməsi modelləri və sosial iqtisadi sistemlərin makro indekslərinin qeyri-səlis məntiq nəzəriyyəsi əsasında qiymətləndirilməsi ilə də bağlı elmi nailiyyətlərindən bəhs edib. Bildirib ki, alimin tədqiqat işlərində iqtisadi informasiyalarda və proseslərdə baş verə biləcək qeyri-müəyyənlik problemlərinin araşdırılması və bu problemlərin sosial-iqtisadi sistemin müxtəlif səviyyələrində həlli üçün təklif edilmiş fazi modellərin respublikamızın inkişaf proqramlarında istifadəsi böyük əhəmiyyət kəsb edir.

Akademik Ziyad Səmədzadə Qorxmaz İmanovun 1984-cü ildə elm sahəsində Azərbaycan SSR Dövlət mükafatına layiq görüldüyünü diqqətə çatdırıb. Vurğulayıb ki, görkəmli alim dünyanın 40-dan çox ölkəsində iqtisadiyyatda riyazi üsulların tətbiqi ilə bağlı çıxışlar edərək ölkəmizi layiqincə təmsil edib.

O, iqtisad və texniki elmlərin qarşılıqlı əlaqəsini yaradan Qorxmaz İmanovun çoxşaxəli fəaliyyətinin gənc nəsil üçün örnək olduğunu deyib. Akademik Ziyad Səmədzadə yubilyarın zəngin təcrübəsi və elmi irsinin respublika iqtisadçıları üçün əvəzsiz məktəb olduğunu bildirib.

Daha sonra AMEA-nın müxbir üzvü Qorxmaz İmanov "Həyat keyfiyyətinin idarə olunmasının süni intellekt texnologiyaları" mövzusunda elmi məruzəsini təqdim edib. O, son illərdə süni intellekt texnologiyalarının sosial-iqtisadi sistemlərin idarəolunmasında tətbiqi sahəsində apardığı tədqiqatlardan və alınan nəticələrdən bəhs edib.

Tədbirdə akademik Əli Abbasov, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin biznesin idarə olunması BBA proqramlarının rəhbəri, AMEA-nın müxbir üzvü Rafiq Əliyev, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru professor Ədalət Muradov, AR Auditorlar Palatasının sədri professor Vahid Novruzov, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru professor Vüsal Qasımlı və UNEC-in nəzdində İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunun direktoru professor Yadulla Həsənli alimi yubiley münasibətilə təbrik edib, onun çoxşaxəli fəaliyyətindən, yüksək insani keyfiyyətlərindən danışıblar. Bildirilib ki, Qorxmaz İmanov respublikamızın elmi ictimaiyyəti arasında tanınmış iqtisadçı alim, nüfuzlu və bacarıqlı təşkilatçı, elmi-nəzəri və təcrübi əhəmiyyətə malik ideyaların daşıyıcısı kimi böyük hörmətə malikdir.

## *Akademik İsa Həbibbəyli:* Qədim türklər Böyük çöl və Bozqır mədəniyyəti əsasında formalaşaraq geniş ərazidə məskunlaşıblar

**Qədim türklər Böyük çöl və Bozqır mədəniyyəti əsasında formalaşaraq Altaylara qədər uzanan geniş landşaftda məskunlaşıblar. Tarixi-coğrafi bölgülərə görə, xristianlığın yayıldığı ərazilər əsasən dağlıq və dənizkənarı zonaları, slavyan xalqları daha çox meşəlik əraziləri, digər dil və etnik qruplar isə müxtəlif təbii-coğrafi mühitləri əhatə ediblər.**



Bunu AMEA-nın prezidenti akademik İsa Həbibbəyli "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya Qədim Turan haqqında və Kiçik Asiya ərazilərində prototürk qəbilələri və onların Qafqaz əlaqələri" mövzusunda konfransda deyib.

O bildirib ki, dünya xalqlarının böyük əksəriyyəti sivilizasiyaların formalaşmasında mühüm rol oynayıb: "Ermənilər isə qədimdən səpələnmə xalq olduqları üçün sivilzasiyada iştirak etməyiblər. Ermən və haylar özləri tərəfindən uydurulmuş saxta mifologiyadan başqa bir şey deyil. Hazırkı geosiyasi şəraitdə Ermənistanın Baş naziri Nikol Paşinyanın real Ermənistan anlayışını qəbul etməsi Ermənistanın xeyrinədir.

Bu kontekstdə Prezident İlham Əliyevin həyata keçirdiyi sülh və təhlükəsizlik siyasətinin Cənubi Qafqazda sabitlik və inkişaf üçün əsas yaratdığı qeyd edilib. Bildirilib ki, bu yanaşma region dövlətləri üçün, o cümlədən Ermənistan üçün də faydalı perspektivlər vəd edir.

Eyni zamanda vurğulanıb ki, Prezidentin uzaqgörən siyasəti nəticəsində Azərbaycanın beynəlxalq nüfuzunu gücləndirir və qlobal proseslərdə rolunu artırır".

# Milli ruhun təntənəsi

**AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda böyük Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 120 illiyinə həsr olunmuş "Milli ruhun təntənəsi - Məhəmmədhüseyn Şəhriyar" mövzusunda elmi konfrans keçirilib.**



Konfransı giriş sözü ilə AMEA-nın vitse-prezidenti, Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva açaraq, qüdrətli söz ustadı, ədəbiyyatımızın iftixarı olan Məhəmmədhüseyn Şəhriyarın poeziyasının dövrün ictimai, siyasi, fəlsəfi və ədəbi görüşlərinin canlı aynası olduğunu bildirib. Şairin ölməz irsinin əbədi olmasını, nəinki Şərq, dünya mədəniyyəti və ədəbiyyatı xəzinəsinin nadir incisi olduğunu deyən akademik G.Baxşəliyeva onun ecazkar poeziyası ilə ürəkləri fəth etdiyini, geniş kütlələrin sonsuz məhəbbətini qazandığını, dildən dilə düşmüş şeirlərinin bir çox dillərə tərcümə olunduğunu, insanların ruhunu oxşadığını qeyd edib. Bildirib ki, bu gün ölkəmizdə çətin elə bir insan tapıla ki, Şəhriyar poeziyasının vurğunu olmasın, onun şeir nümunələrini bilməsin.

Ulu Öndər Heydər Əliyevin müsahibələrinin birində: "Sevdiyiniz şair?" - sualına - "Şəhriyar", - deyə cavab verdiyini xatırladan akademik G.Baxşəliyeva Ümummilli Liderin böyük şair barədə dediklərini xatırladıb: "Dahi sənətkarın yaradıcılığının dərindən öyrənilməsi, tədqiq və tədris edilməsi sənət və elm xadimlərimizin müqəddəs borcudur".

Şərqşünaslıq İnstitutunun elmi işlər üzrə direktor müavini filologiya üzrə fəlsəfə doktoru, dosent Ruhəngiz Cümşüdlü konfransda "Əbədiyyət gülü - Şəhriyar" mövzusunda məruzə edib. Şəhriyarın fars və Azərbaycan dillərində yüksək poetik ruhlu şeirlər yaratdığını deyən R.Cümşüdlü. onun fars dilində yaratdığı məhəbbət lirikasının fars ədəbiyyatının Sədi Şirazi, Hafiz Şirazi kimi dahilərinin lirikası ilə yanaşı çəkildiyini bildirib.

İran filologiyası şöbəsinin aparıcı elmi işçisi filologiya üzrə fəlsəfə doktoru, dosent Rəna Rzayeva "Şəhriyar: zamanın və tarixin qiyməti" mövzusunda məruzə edib. Tarixi simaların yalnız yaşadıqları dövrün gözü ilə deyil, zamanın süzgəcindən keçərək də dəyərləndirildiklərini deyən məruzəçi, onlara öz müasirləri tərəfindən verilən qiymətin dövrün maraqları, düşüncə tərzi və emosiyaları ilə formalaşdığını qeyd edib.

İran filologiyası şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru, dosent Günay Verdiyeva konfransda "Can Rüstəm: Şəhriyar və Rüstəm Əliyev arasında dostluq əlaqəsi" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə böyük Azərbaycan şairi Məhəmməd Hüseyn Şəhriyar ilə görkəmli şərqşünas-alim Rüstəm Əliyev arasında dostluq və mənəvi qardaşlıq münasibətlərindən bəhs olunub.

Cənubi Azərbaycan şöbəsinin elmi işçisi Nazim Mənsimov "İki dünyanın qovuşduğu zirvə - Məhəmmədhüseyn Şəhriyar timsalında" mövzusunda məruz edib. Məruzəçi bildirib ki, Şəhriyar sadəcə bir şair deyil, o, XX əsr Azərbaycan və İran ədəbi mühitinin mühüm kəsişmə nöqtəsi, iki böyük mədəniyyəti bir-birinə bağlayan mənəvi körpüdür.

Sonda məruzələr ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb.

# Naxçıvan Bölməsində Xalq şairi Səməd Vurğunun 120 illik yubileyi qeyd olunub



**AMEA Naxçıvan Bölməsində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Səməd Vurğunun anadan olmasının 120 illik yubileyinə həsr olunan elmi konfrans keçirilib.**

Konfrans AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə baş tutub.

Konfransda İncəsənət, Dil və Ədəbiyyat İnstitutunda istehsalat təcrübəsi keçən filologiya ixtisası tələbələri ilə yanaşı, Naxçıvan Dövlət Universiteti Tarix-filologiya fakültəsinin "Azərbaycan ədəbiyyatı" kafedrasının müdiri Nurlana Əliyeva, Tarix-filologiya fakültəsinin dekan müavini, tarix üzrə fəlsəfə doktoru Qadir Əkbərov və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin deputatı, filologiya üzrə fəlsəfə doktoru, dosent Əli Həşimov iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Əbülfəz Quliyev Azərbaycan Respublikası Prezidentinin Səməd Vurğunun 120 illiyinin qeyd edilməsi haqqında Sərəncamı barədə ətraflı məlumat verib. O qeyd edib ki, Səməd Vurğun Azərbaycan ədəbi dilinin zənginləşməsində, milli poetik təfəkkürün formalaşmasında və poeziyanın yeni mərhələyə yüksəlməsində müstəsna xidmətlər göstərmiş sənətkardır. Professor vurğulayıb ki, şairin yaradıcılığı yalnız estetik baxımdan deyil, həm də ideya-məzmun zənginliyi ilə seçilir, milli kimliyin və vətənpərvərlik ruhunun aşılanmasında mühüm rol oynayır. Əbülfəz Quliyev çıxışında Səməd Vurğunun irsinin bu gün də aktuallığını qoruduğunu, gənc nəslin ədəbi-estetik tərbiyəsində mühüm əhəmiyyət kəsb etdiyini xüsusi qeyd edib.

Daha sonra İncəsənət, Dil və Ədəbiyyat İnstitutu Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya elmləri doktoru, dosent Ramiz Qasımov "Nəzəriyyədən təcrübəyə həyat və yaradıcılıq yolu ilə Səməd Vurğun" mövzusunda geniş məruzə edib. O, Səməd Vurğunun Azərbaycan ədəbiyyatında tutduğu mövqeyi yüksək qiymətləndirərək bildirib ki, şair milli poeziyanın inkişafında dönüş yaradan sənətkarlardandır. Ramiz Qasımov qeyd edib ki, Səməd Vurğun poeziyanın günəşi kimi Azərbaycan ədəbiyyatını işıqlandırmış, xüsusilə poema janrının inkişafına mühüm töhfələr vermişdir. Məruzədə şairin yaradıcılığının çoxşaxəliliyi, lirika və dramaturgiya yaratdığı zəngin irs ətraflı təhlil olunub. Alim həmçinin vurğulayıb ki, Səməd Vurğunun əsərlərində xalqın tarixi yaddaşı və milli-mənəvi dəyərlər üzvi şəkildə birləşir.

Konfrans çərçivəsində tələbələrin məruzələri də dinlənilib. Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin təcrübəçi tələbəsi Aysu Allahverdiyeva "Səməd Vurğunun təbiət lirikası" mövzusunda məruzə edərək şairin təbiət təsvirlərində yer alan poetik inceliyi vurğulayıb. Sumru Xəlilova "Səməd Vurğunun məhəbbət lirikası" mövzusunda məruzəsində onun sevgi mövzusuna humanist yanaşmasını qeyd edib. Akşin Abbaszadə "Səməd Vurğunun dramaturgiyası" mövzusunda məruzə edərək dramaturji əsərlərinin səhnə uğurlarından bəhs edib. Nərmin İsmayılova "Səməd Vurğunun poemaları" mövzusunda təqdimatında şairin poema yaradıcılığının xüsusiyyətlərini təhlil edib. Rəna Qasımova isə "Səməd Vurğun və repressiya" mövzusunda məruzə edərək yaşadığı dövrün ictimai-siyasi şəraitinin şairin yaradıcılığına təsirindən danışıb. Günel Seyidova Səməd Vurğunun "Azərbaycan" şeirini səsləndirərək iştirakçıların rəğbətini qazanıb.

Daha sonra Naxçıvan Dövlət Universitetinin müəllimləri çıxış edərək tədbirin yüksək səviyyədə təşkilinə görə təşəkkürlərini bildiriblər. Onlar həmçinin tələbələrin konfransdakı fəal iştirakını və məruzələrinin məzmun dolğunluğunu yüksək qiymətləndiriblər.

Tədbirin sonunda AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun direktoru, filologiya elmləri doktoru Fərman Xəlilov, Əlyazmaların kataloqlaşdırılması, tədqiqi və nəşri şöbəsinin müdiri, filologiya elmləri doktoru Səbuhi İbrahimov və "Musiqi və teatr" şöbəsinin aparıcı elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ələkbər Qasımov çıxış edərək konfransın elmi əhəmiyyətini yüksək qiymətləndiriblər, tələbələrin məruzələrinə münasibətlərini bildirərək onların gələcək elmi fəaliyyətlərində uğurlar arzulayıblar.

Sonda Ümummilli Lider Heydər Əliyevin Səməd Vurğun haqqında söylədiyi fikirləri əks etdirən videoçarx nümayiş olunub və iştirakçılar tərəfindən maraqla izlənilib.

# Gəncə Bölməsində ana dilimizin qorunması və inkişafı mövzusunda seminar

**AMEA-nın Gəncə Bölməsində ana dilimizin qorunması və inkişafı mövzusunda seminar keçirilib.**



Seminarı giriş sözü ilə açarkən, Bölmənin sədri, akademik Fuad Əliyev bu görüşün ölkə rəhbəri cənab İlham Əliyevin AMEA-nın 80 illik yubileyinə həsr olunmuş toplantıda etdiyi proqram xarakterli çıxışı zamanı, dilimizin qorunması və inkişafı və bu yöndə ziyalılarımızın, alimlərimizin üzərinə düşən vəzifələr haqda səsləndirdiyi vacib məsələlərin işığında təşkil edildiyini vurğulayıb və əməkdaşların bugünkü çıxışlarında məhz həmin tezisləri əhatə edən elmi xarakterli mülahizələrə diqqət yetirəcəklərinə ümid etdiyini bildirib.

Akademik F.Əliyev, həmçinin müasir dövlətçiliyimizin qurucusu, Ulu Öndər Heydər Əliyevin millətin formalaşmasında, yaşamasında ana dilinin rolunu yüksək dəyərləndirdiyini, bu baxımdan XX əsrin ikinci yarısından etibarən Azərbaycan dilinin sürətli inkişaf tapmasının, dövlət dili statusuna sahib olmasının, diplomatiya aləminə yol açmasının, dünyanın böyük dövlətlərinin və beynəlxalq təşkilatların kürsülərində səslənməsinin məhz onun adı ilə bağlı olduğunu və həmin siyasi xəttin bu gün onun layiqli davamçısı cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Sonra seminarda məruzələr dinlənilib.

AMEA-nın Gəncə Bölməsinin elmi işlər üzrə sədr müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent Əlimuxtar Muxtarov "Müasir Azərbaycan dili" mövzusunda çıxış edib. O, Azərbaycan dilinin dünyanın ən zəngin, eyni zamanda geniş ifadə imkanlarına sahib dillərindən olduğunu vurğulayıb. Ə. Muxtarov dilimizin uzaq keçmişdən bu günümüzədək istər klassik, istərsə də müasir formatlarda daim diri, zəngin və çevik xüsusiyyətlər daşıdığını diqqətə çatdırıb, bu milli sərvəti qorumağın zəruriliyini bildirib.

Ə. Muxtarov ana dilimizin qorunması, inkişafı və dövlət statusunun tam bərqərar edilməsi haqda tariximizin müxtəlif mərhələlərində həyata keçirilən mühüm sənədlər haqda da məlumat verib.

O, həmçinin ana dilimizin azərbaycançılıq məfkurəsi əsasında hərtərəfli inkişafı, gənc nəslin öz doğma dilinə sevgi və hörmət ruhunda tərbiyə olunması, ədəbi dilin normalarına ciddi surətdə əməl edilməsi, o cümlədən dilçilik elminin müxtəlif sahələri üzrə yüksəkixtisaslı kadrların hazırlanması məsələləri baxımından Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın, eləcə də 2018-ci il 1 noyabr tarixli "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanının əhəmiyyətini qeyd edib.

AMEA-nın Gəncə Bölməsinin Nizami Gəncəvi Mərkəzinin "Nizami irsində sənətşünaslıq" şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Təranə Verdiyeva "XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan dilinin saflığının qorunması uğrunda mübarizə" mövzusunda çıxış edib. O, iki əsrin qovşağında millətimizin tərəqqisi naminə çalışmış görkəmli ziyalılarımızın ana dilimizin saflığı, inkişafının sürətləndirilməsi, ifadə imkanlarının yüksəldilməsi yönündə fəaliyyətlərindən söhbət açıb və bu xüsusda onların "Əkinçi", "Molla Nəsrəddin" və digər bu kimi maarifçi qəzet və məcmuələrdə millətpərəst mövqeyi haqda ətraflı məlumat verib.

AMEA-nın Gəncə Bölməsinin Nizami Gəncəvi Mərkəzinin "Nizaminin elmi-fəlsəfi görüşləri" şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Xəyalə Hüseynova "Klassik mütəfəkkirlərin yaradıcılığında Azərbaycan dilinin zənginliyi" mövzusunda çıxış edib. O, ədəbiyyat və fikir nəhənglərimizin əsərlərində dilimizin yüksək imkanlarının əks etdirən numunələri təqdim edib.

Seminar qarşılıqlı fikir mübadiləri şəraitində davam edib.

Tədbirin sonunda akademik Fuad Əliyev dərin məzmunlu çıxış və müzakirələrə görə, iştirakçılara təşəkkürünü bildirib.

## BEYNƏLXALQ ELMİ ƏMƏKDAŞLIQ

# İraq türkmanlarının tarixi və etnologiyası

**AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunda "İraq türkmanlarının tarixi və etnologiyası" mövzusunda beynəlxalq elmi seminar keçirilib.**



Tarix və Etnologiya İnstitutunun direktoru, tarix elmləri doktoru, professor Kərim Şükürov tədbiri giriş sözü ilə açaraq İraq türkmanlarının tarixi və etnoloji baxımdan tədqiqinin institutun prioritet elmi məsələlərindən biri olduğunu bildirib, bu istiqamətdə aparılan elmi tədqiqatların vacibliyini vurğulayıb. İnstitutun direktoru belə tədbirlərin türk dünyasında elmi və mədəni əlaqələrin möhkəmlənməsinə, yeni əməkdaşlıq ideyalarının ortaya çıxmasına xidmət etdiyini dedi.

Türk xalqlarının tarixi və etnologiyası şöbəsinin müdiri, tarix elmləri doktoru, dosent Güllü Yoloğlu "İraqda türklərə aid tarixi abidələr" mövzusunda çıxış edərək bu abidələrin türk mədəni irsinin ayrılmaz hissəsi olduğunu diqqətə çatdırıb.

Beynəlxalq elmi seminarda İraq və Türkiyədən çıxışçı və iştirakçılar onlayn şəkildə iştirak ediblər. İraqdan beynəlxalq tədbirə qoşulan yazıçı, jurnalist və tərcüməçi Mehmet Haşim Salihi "Türkmanların İraq və Orta Şərqdə olan varlığı" barədə fikirlərini bölüşüb, Kərkük türkmanlarının vəziyyətindən, Azərbaycan və İraq əlaqələrinin perspektivlərindən danışıb.

Türkiyədən onlayn şəkildə tədbirdə iştirak edən alim Ali Semin "Türkmanların Orta Şərqdəki indiki durumu və gələcəyi" mövzusunda çıxış edərək belə tədbirlərin qarşılıqlı əlaqələrin inkişafına xidmət göstərdiyini, mənəvi bağları daha da gücləndirdiyini söyləyib.

Daha sonra tədbirdə politoloq Araz Qurbanov "İraq türkmanları azərbaycanlı politoloqun gözü ilə", AMEA Ədəbiyyat İnstitutunun əməkdaşı f.ü.f.d., dos. Orxan İsayev "Türkman etnoniminin tarixi mənbələrdə əksi", AMEA Folklor İnstitutunun əməkdaşı, f.ü.f.d., dos. Səkinə Qayıbalıyeva "Sovet dövrü İraq-türkman ədəbiyyatının folklor qaynaqları" adlı məruzələrlə çıxış ediblər.

Seminar müzakirələrlə davam edib, iştirakçılar fikir mübadiləsi apardılar, sonda tədbirin əhəmiyyəti bir daha vurğulanıb və gələcək elmi əməkdaşlıqlar üçün geniş imkanların olduğu qeyd edilib.

# Ədəbiyyat İnstitutunun əməkdaşı Polşada tələbələrə mühazirə deyib

**Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, Gənclər Akademiyasının sədr müavini Şəfa Əliyeva Polşa Respublikasının Bialıstok Universitetində, İngilis filologiyası fakültəsində tələbələr qarşısında maraqlı və yüksək səviyyəli məruzələrlə çıxış edib.**



Həftənin ilk günlərində o, "Azərbaycan dramaturgiyası tənqidi realizm kontekstində" və "Müasir ədəbi ənənələrdə realizmin transformasiyası" mövzularında məruzələrlə çıxış edib. Böyük maraqla qarşılanan bu çıxışlar elmi heyət və tələbələr tərəfindən yüksək qiymətləndirilib.

Növbəti günlərdə isə Şəfa Əliyevanın təqdimatında "Dramaturgiyada qəhrəman anlayışı sosial tənqid vasitəsi kimi" və "Azərbaycan mətnləri əsasında ədəbi təhlil metodları və rəqəmsal yanaşmalar" mövzularında məruzələr dinləniləcək.

Bu çıxışlar, Azərbaycan ədəbiyyatının beynəlxalq elmi mühitdə tanıdılmasına və müqayisəli ədəbiyyatşünaslıq sahəsində yeni perspektivlər açılmasına mühüm töhfə verir.

# Arxeoloq alimlər beynəlxalq elmi simpoziumda



**Türkiyə Respublikası Balıkesir Universitetinin təşkilatçılığı ilə "Quvayi-Milliyə Şəhəri Balıkesir Beynəlxalq Yörük Türkmən Simpoziumu" keçirilib.**

Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstandan olan arxeoloq və etnoqrafların iştirak etdiyi sözügedən beynəlxalq elmi simpoziumda AMEA Arxeologiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi, t.ü.f.d., dosent Anar Ağalarzadə və AMEA Lənkəran Regional Elmi Mərkəzinin elmi işlər üzrə direktor müavini, t.ü.f.d. Samir Kərimov birlikdə təmsil olunmuşlar. "Güney Kafkasya'nın Güneydoğu sınırlarında yerleşim izleri: Peşteser yaylalarında tespit edilen yarı göçebelere ait Tunç-Erken Demir çağı kurqanları" adlı məruzə ilə online formatda çıxış edən alimlər qeyd etmişlər ki, Cənubi Qafqazın cənub-şərq sərhədlərində, Azərbaycanın cənub-şərqində, Peştəsər yaylaqlarında yerləşən Tunc və Erkən Dəmir dövrünə aid yarımköçəri cəmiyyətlərə məxsus kurqanlar tarixin ən maraqlı səhifələrindən birini təşkil edir. Son illərdə bu dəfn abidələrində aparılan yeni arxeoloji qazıntılar Erkən Tunc dövründən başlayaraq yarımköçəri icmaların yüksək dağlıq ərazilərdə məskunlaşması və dəfn adətlərində kurqan tipli qəbirlərin ucaldılması ənənəsini ortaya çıxarmışdır.

Qəbirlərdən tapılan maddi mədəniyyət nümunələri (dulusçuluq məmulatı, tunc silahlar, bəzək əşyaları və daş alətlər) yerli istehsal təsərrüfatının formalaşmasından xəbər verir. Bundan əlavə, dəfnlərin fərqli xüsusiyyətləri də dağlıq ərazidə kurqanlarda dəfnetmə ənənəsinin müxtəlif dövrlərdən geniş yayıldığını konkret sübut edir. Müqayisəli təhlillərə əsasən, belə arxeoloji nümunələr Cənubi Qafqazın eyni dövrə aid arxeoloji mədəniyyətlərinə məxsus abidələrdən də məlumdur.

Məruzə konfrans iştirakçıları tərəfindən maraqla qarşılanmış, Azərbaycanın cənub-şərq bölgəsinin arxeoloji abidələri və onun maddi mədəniyyət nümunələri haqqında suallar cavablandırılmış, qarşılıqlı diskussiyalar aparılmışdır.

# *Hikmət Quliyev:* Azərbaycan folklorşünaslığında yeni elmi problemlərin araşdırılması qlobal çağırışların və milli prioritetlərin tələbidir



**Bu sözlər AMEA Folklor İnstitutunun direktoru, filologiya elmləri doktoru Hikmət Quliyev tərəfindən institutun Elmi şurasının iclasında deyilib. O qeyd edib ki, müasir dövrdə baş verən qlobal transformasiyalar, ölkəmizdə həyata keçirilən dövlət siyasətinin prioritetləri, son dövrlərdə AMEA-da humanitar və sosial elmlər sahəsində aparılan islahatlar folklorşünaslığın da qarşısında yeni vəzifələr formalaşdırmaqdadır.**

Hikmət Quliyev qeyd edib ki, son illərdə Azərbaycan folklorşünaslığının klassik filoloji və tarixi paradiqma çərçivəsindən çıxarılaraq sosial-mədəni dinamikanı və kollektiv reaksiyanı öyrənən metodoloji yanaşmalara doğru istiqamətlənməsi üçün bir sıra addımlar atılmış, 2021-2025-ci illər üzrə araşdırılan problemlər dərindən təhlil edilmiş, növbəti mərhələ üçün qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

Alim vurğulayıb ki, 2003-cü ildən etibarən AMEA Folklor İnstitutunun əsas elmi istiqaməti "Azərbaycan xalq yaradıcılığının qaynaqları, təşəkkülü, inkişaf qanunauyğunluqları və əlaqələri" olmuş, ötən dövr ərzində folklor nümunələrinin toplanması, təsnifatı və nəşri sahəsində əhəmiyyətli işlər aparılmışdır. Bu mərhələnin folklorşünaslıq baxımından filoloji təmayüllü olduğunu qeyd edən Hikmət Quliyev vurğulayıb ki, klassik yanaşma folkloru əsasən mətn və janr sistemi kimi öyrənmiş, aparıcı elmi paradiqma isə filoloji estetikaya əsaslanan mətnmərkəzli folklorşünaslıq yanaşması olmuşdur. Bu yanaşma folkloru daha çox bədii-poetik çalara malik keçmiş haqqında təəssürat, yaşlıların daşıdığı xatirə, qəlibləşmiş ifadə, ən əsası isə mətn halında qəbul edir. Lakin müasir dövrün sosial-antropoloji rakurslu folklorşünaslıq çağırışları folkloru sosial-mədəni funksionallıq, kollektiv mədəni yaddaş, milli, mədəni identiklik, bütövlükdə isə xalq "biliyi", yeni düşüncə, davranış, inanc, yasaq, tabu, adət-ənənə, bir sözlə, xalqın kollektiv reaksiyasının təzahürü kimi qavrayır. Bu isə yeni elmi paradiqma və baxışların, müasir dünya folklorşünaslıq elmində gedən dəyişikliklərin, eyni zamanda ölkəmizdə həyata keçirilən müasirləşmə və qlobal dünya ilə ayaqlaşma çağırışlarının, eləcə də son illər Azərbaycan elmində və AMEA-da irəli sürülən kompleks islahatların nəzərə alınmasını tələb edir.

Bunu nəzərə alaraq, 2026-ci ildən etibarən AMEA Folklor İnstitutunda elmi istiqamətin Azərbaycan folklorunun kollektiv mədəni yaddaş, milli kimlik, ənənəvi düşüncə, sosial stereotiplər kontekstində canlı kommunikativ sistem kimi mahiyyəti, funksiyası və strukturunun tədqiqi konsepti üzərində qurulması nəzərdə tutulur.

Qeyd olunan elmi istiqamətə müvafiq olaraq, 2026-2030-cu illər üçün Folklor İnstitutunda 9 elmi problemin araşdırılması həyata keçiriləcəkdir:

- Azərbaycan (türk) mifoloji və stereotip dünyagörüşünün folklor mətnləri əsasında toplanılması və semantik analizi;
- Real və virtual məkanda formalaşan folklor nümunələrinin, xalq ənənə və təcrübələrinin beynəlxalq yanaşmalar əsasında toplanılması, sistemləşdirilməsi, arxivləşdirilməsi, nəşri və elmi əsaslarının tədqiqi;
- Müasir metodoloji yanaşmalar əsasında Türk eposunun nəzəri və təcrübi əsaslarının öyrənilməsi, müqayisəli-tipoloji analizlərin aparılması;
- Folklorun sosial-antropoloji metodologiya əsasında psixoloji, sosioloji, mərasimi, kulturoloji və performativ aspektlərinin araşdırılması;
- Süni intellekt və folklor münasibətlərinin nəzəri-metodoloji aspektlərinin və sosiotexnoloji mühitdə yaranan folklorik ənənələrin və metaforik konseptlərin multidissiplinar kontekstdə araşdırılması;
- Azərbaycanın tarixi mədəni irsi kontekstində regional və multikultural folklor mühitlərinin, tolerantlıq ənənələrinin sistemli şəkildə öyrənilməsi;
- Ümumtürk mədəni irsi çərçivəsində türk xalqları folklorunun müasir elmi-metodoloji yanaşmalar əsasında sistemli tədqiqi, akademik tərcüməsi və elmi dövriyyəyə daxil edilməsi;
- Müasir dövrün folklor yaradıcılığının və fərqli sosial qrupların kollektiv biliyinin nəzəri və təcrübi əsaslarının araşdırılması;
- Şifahi və yazılı mədəniyyət münasibətləri kontekstində folklor və ədəbiyyatın qarşılıqlı əlaqəsinin elmi-nəzəri əsaslarının araşdırılması.

Hikmət Quliyev bildirib ki, "Yeni elmi paradiqma folkloru canlı sosial-mədəni sistem kimi dərk edir, onu real və virtual mühitdəki performativ və mərasim praktikaları ilə, həmçinin multikultural və interdissiplinar tədqiqat perspektivi ilə birləşdirir".

Ümumilikdə, 2026-2030-cu illər ərzində Azərbaycan folklorşünaslığının əsas məqsədi həm milli mədəni irsi qorumaq, həm də onun qlobal elmi dövriyyəyə inteqrasiyasını təmin etməkdir. Bu çərçivədə kollektiv mədəni yaddaş və stereotip dünyagörüşünün tədqiqi, folklorun sosio-psixoloji mahiyyəti, onun mərasimi-performativ və kommunikativ təbiətinin analizi, tarixi-mədəni irs və multikultural folklor mühitlərinin öyrənilməsi, həmçinin sosiotexnoloji platformalar, süni intellekt və folklor münasibətləri, eləcə də peşə və sosial qruplar üzrə folklor nümunələrinin sistemli təhlili kimi istiqamətlər prioritet elmi sahələr kimi müəyyənləşdirilib.

## Əlyazmalar İnstitutu Prezident Kitabxanasına elmi nəşrlər hədiyyə edib

**AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Prezident Kitabxanasına 7 adda 10 nüsxə kitab və 2 ədəd jurnal hədiyyə edib.**




Hədiyyə olunan nəşrlər Azərbaycan klassik ədəbiyyatının mətn ənənəsini, əlyazma irsinin öyrənilməsi istiqamətlərini, orta əsr mətnşünaslığının problemlərini və milli mədəniyyət tarixinin müxtəlif qatlarını əhatə edir. Bu nəşrlər sırasında klassik əsərlərin elmi-tənqidi mətnləri, "Molla Nəsrəddin" ədəbi mühiti ilə bağlı araşdırmalar, elmi-nəzəri konfrans materialları və ixtisaslaşmış jurnal yer alır. Nəşrlər mənbəşünaslıq və mətnşünaslıq sahəsində aparılan tədqiqatların əsas istiqamətlərini əks etdirir.

Prezident Kitabxanasından alınan məlumata görə, hədiyyə edilən nəşrlər kitabxana fondunun məzmununu genişləndirir və elmi-istinad bazasını möhkəmləndirir ki, bu materiallar klassik ədəbi irsin öyrənilməsi və əlyazma mədəniyyətinə dair araşdırmalar üçün etibarlı mənbədir.

## Çinli alimlər beyinin düşüncə və qavrayış arasında necə keçid etdiyini araşdırıblar

**Çin Elmlər Akademiyasının Psixologiya İnstitutunun alimləri beyinin düşüncə və xarici qavrayış arasında keçidi necə həyata keçirdiyini araşdırıblar.**



Tədqiqatda beyinin standart rejim şəbəkəsi (DMN) təhlil olunub. Şəbəkənin alt bölgələri ya məlumat "göndərən", ya da "qəbul edən" rolunu oynayır: qəbuledici sahələr xarici məlumatı alır, göndərən sahələr isə yaddaş və təcrübəyə əsaslanaraq məlumat ötürür.

Alimlər bildiriblər ki, üz tanımaq kimi tapşırıqlarda qəbuledici, yaddaş və keçmiş təcrübəyə əsaslanan qərarlarda isə göndərən sahələr daha aktiv olur.

Tədqiqat rəhbəri Zhang Meyçaonun fikrincə bu araşdırma beyinin düşüncə və qavrayış arasında necə hamar keçid etdiyini göstərir.

YENİ NƏŞRLƏR

## Şərq poeziyasında İskəndər obrazının tədqiqi

